# Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi: tənəzzüldən tərəqqiyə yüksələn 50 illik çətin yolun bəzi mühüm sosial-iqtisadi nəticələri haqqında (1969-2019)

Azərbaycan xalqı ötən əsrlərdə bəşəriyyətə adlarını əbədi olaraq dünya tarixinin səhifələrində həkk etdirmiş Cavanşir, Babək, Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhlivan, Qızıl Arslan, Uzun Həsən, Şah İsmayıl Xətai, Şah Abbas, Nadir Şah Əfşar kimi onlarca görkəmli dövlət xadimləri vermişdirsə, **XX yüzillikdə** də Corc Vaşinqton, Franklin Ruzvelt, Şarl De Qoll, Cavahirlər Nehru və Mustafa Kamal Atatürk şəxsiyyətləri ilə bir sırada duran və **hazırda alternativi olmayan Heydər Əlirza oğlu Əliyev kimi dünya şöhrətli siyasətçi, dahi şəxsiyyət və qüdrətli dövlət başçısı bəxş etmişdir.**

Müstəqil Azərbaycan dövlətinin memarı və Azərbaycan xalqının minillik arzusunu tarixi reallığa çevirmiş bu dahi şəxsiyyətin bu il 96 yaşı, ilk dəfə Azərbaycan Respublikasının rəhbərliyinə gəlişinin isə 50 ili tamam olur. O, 1923-cü il may ayının 10-da doğma vətənimiz Azərbaycanın ayrılmaz hissəsi olan qədim elm və mədəniyyət mərkəzi, böyük dövlətçilik tarixi olan Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində anadan olmuş və “14” iyul 1969-cu il tarixdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Plenumunda yekdilliklə Azərbaycan KP MK-nın Birinci katibi vəzifəsinə seçilmişdir. Heydər Əliyev Azərbaycan Respublikasına iki dəfə rəhbərlik etmişdir.

- **Birinci dəfə** 1969-1982-ci illərdə;
- **İkinci dəfə** 1993-2003-cü illərdə.

**Ulu öndərin Azərbaycan Respublikasına rəhbərlik etdiyi hər iki dövr ölkənin ən ağır və böhranlı vəziyyət keçirdiyi illərə təsadüf etmişdir.** Onun Azərbaycana rəhbərliyə gəldiyi **birinci dövr** respublika iqtisadiyyatının bütünlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoyması ilə; **ikinci dövr isə** Azərbaycanın tarixində **ən ağır, fəlakətli illəri, “Ölüm ya olum” dilemması ilə üz-üzə qalması ilə səciyyələnirdi.** Ulu öndər Heydər Əliyev hər iki dəfədə Azərbaycan xalqının və dövlətinin maraqlarını, mənafelərini müdafiə və təmin edən düzgün siyasi qərarlar qəbul edib həyata keçirməklə onu düşdüyü ağır vəziyyətdən çıxara bilmişdir. Ulu öndərin Azərbaycana bilavasitə rəhbərlik etdiyi 23 ilin 13 ili (1969-1982-ci illər) Sovet hakimiyyəti dövrünün; 10 ili (1993-2003-cü illər) isə Azərbaycanın müstəqillik illərinin payına düşür. Ulu öndər Heydər Əliyevin ilk dəfə Azərbaycana rəhbərlik etməyə başladığı vaxtdan keçən 50 ilin 16 ili isə (2003-2019-cu illər) İlham Əliyev cənablarının hazırda Azərbaycana rəhbərlik etdiyi dövrdür. **Ümumiyyətlə götürdükdə** isə bu 50 illik dövrün 22 ili (1969-1991-ci illər) Sovet hakimiyyəti illərinin; 28 ili isə (1991-2019-cu illər) Azərbaycanın müstəqillik illərinin payına düşür. **Heydər Əliyev cənablarının respublikamıza rəhbərlik etdiyi hər iki dövr Azərbaycanda inkişafın yeni mərhələləri – bərpa və dinamik inkişaf mərhələləri; İlham Əliyev cənablarının respublikamıza rəhbərlik etdiyi dövr isə Azərbaycanda iqtisadi inkişafın keyfiyyətcə yeni inkişaf mərhələsinə keçid dövrü və tarixin ən qüdrətli Azərbaycanının yaradıldığı dövr kimi tarixə düşmüşdür.**

**Azərbaycanın çağdaş tarixi, tarixi şəxsiyyət, Ümummilli Liderimiz Heydər Əliyevin və onun layiqli davamçısı, dünyanın ən islahatçı prezidenti İlham Əliyevin adları və fəaliyyətləri ilə bağlıdır.**

Sadə və zəhmətkeş dəmir yol fəhləsi Əlirza kişinin ailəsində dünyaya göz açmış və **həyat fəlsəfəsi:**

- **“Mənim həyatım xalqa məxsusdur...**

© Şahbaz Muradov. AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor
© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- **Həyatımın mənasını xalqa sədaqətlə xidmət etməkdə görürəm...**
- **Mənim üçün ən yüksək mükafat... xalqın etimadını qazanmaqdan ibarətdir"** olan Heydər Əlirza oğlu Əliyev öz qabiliyyəti, bacarığı, zəhmətsevərliyi, möhkəm iradəyə və əqidəyə, prinsipiallığa malik olması, dönməz mübarizliyi və sağlamlığı bahasına bütün çətinliklərə sinə gərərək keçmiş SSRİ kimi nəhəng bir dövlətin rəhbərləri sırasına - Sov. İKP MK-nın Siyasi Bürosunun üzvü SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə yüksələ bilmişdir.

Onun bu vəzifəyə yüksəlməsinə ağız büzən bəzi nadanlara cavab olaraq Ulu öndər demişdir: "Mən on il Moskvada yaşadım, özü də ən yüksək vəzifədə işlədim. Azərbaycan xalqının, müsəlman aləminin tarixində nə keçmiş rus imperiyası dövründə, nə də Sovet İttifaqının hakimiyyəti zamanı o cür zirvəyə çatan azərbaycanlı olmamışdır. Bu da tarixdir. Bəziləri deyirlər ki, Heydər Əliyev Siyasi Büronun üzvü olubdur və sairə. Bəli olmuşam, Mən bununla fəxr edirəm. Çünki, Azərbaycan xalqını tanıtmışam, Azərbaycan xalqını Kremlin sarayında qaldırmışam. Bununla fəxr edirəm. Mən orada on il yaşadım, ancaq mənim ürəyim də, gecəm də gündüzüm də Azərbaycanla olub. Çünki, Azərbaycan mənim doğma vətənim, torpağımdır". *(Azərbaycan beynəlxalq aləmdə. Azərbaycan prezidenti Heydər Əliyevin 1997-ci ildə xarici ölkələrə səfərinə dair materiallar. III.c. Bakı, Göytürk. 1998, 572. s.).* Bəli, **"Mən həmişə fəxr etmişəm, indidə fəxr edirəm ki, mən Azərbaycanlıyam" – deyən Heydər Əliyev keçmiş SSRİ-də belə yüksək vəzifəyə yüksəlmiş yeganə azərbaycanlıdır. O, nəinki bizim, həm də bütünlükdə müsəlman aləminin, türk dünyasının fəxridir.**

**Müstəqil Azərbaycan dövlətinin Memarı, Yeni Azərbaycanın qurucusu olan və xalqından heç nəyi əsirgəməyən bu böyük insan sözün əsil mənasında ömrünü öz xalqının yolunda şam kimi əritdi, demək olar ki, şəhid oldu.**



Müstəqil Azərbaycan dövlətinin memarı, özünün böyük həyatı ilə zamanın çərçivəsinə və sözə sığmayan dahi şəxsiyyət olan Heydər Əliyev və onun layiqli davamçısı, **tarixin ən qüdrətli Azərbaycanın** yaradıcısı prezidenti İlham Əliyev cənablarının fəaliyyəti haqqında **söz demək nə qədər çətin və məsuliyyətli olsa da onlarla bir dövrdə yaşamış, onların xeyir-duası ilə bir sıra nailiyyətlərə yiyələnmiş bir azərbaycanlı elm xadimi kimi bu dahi şəxsiyyətlərin Azərbaycanda iqtisadiyyatın, elmin, təhsilin və insan şəxsiyyətinin inkişafı sahəsindəki bəzi böyük xidmətləri haqqında öz fikirlərimi yazmağı özümə borc bilirəm.** Müasir **dünyada alternativi olmayan** və dünyanın ən qüdrətli dövlət xadimləri kimi tanınmış **Heydər Əlirza oğlu Əliyev** ilk dəfə 46 yaşında hakimiyyətə gəldiyi vaxt Azərbaycan Respublikası ictimai-siyasi, iqtisadi, sosial-demoqrafik, mənəvi-psixoloji və s. sahələri əhatə edən böyük çətinliklər və problemlərlə üz-üzə qalmışdı.

> *"Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi".*
>
> ***Heydər Əliyev***

Keçən əsrin 60-cı illərinin sonlarına yaxın respublikamızın iqtisadiyyatı dərin və uzunmüddətli böhran vəziyyətinə qədəm qoymuş və sosial-iqtisadi həyatın bütün sahələrində geridə qalaraq iqtisadi inkişafın bir çox mühüm göstəricilərinin səviyyəsinə görə keçmiş

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

İttifaq Respublikaları arasında sonuncu yerlərdən birini tutmuşdur. Belə ki, əgər 1960-1970-ci illərdə SSRİ-də istehsal edilmiş milli gəlirin orta illik artım sürəti - 8, əmək məhsuldarlığının orta illik artım sürəti – sənayedə - 5, kənd təsərrüfatında isə 67 faiz təşkil etmişdirsə, Azərbaycan SSR-də bu göstəricilər xeyli aşağı, yəni müvafiq surətdə cəmi 5; 3,3 və 26 faiz olmuşdu. Müqayisə edilən dövrdə bir sıra başqa mühüm iqtisadi göstəricilərin səviyyəsinə görə də respublikamız Orta İttifaq səviyyəsindən xeyli geridə qalırdı. 1960-cı ildə Azərbaycan SSR-də adambaşına düşən məcmu ictimai məhsul istehsalının həcmi Orta İttifaq səviyyəsinin – 75,8; milli gəlir istehsalının 74; sənaye məhsulu istehsalının – 75,8; kənd təsərrüfatı məhsulu istehsalının – 68,7; hər bir fəhlə və qulluqçunun orta aylıq əmək haqqının 95,5; əhalinin hər nəfərinə düşən ictimai istehlak fondlarının – 75,6; pərakəndə ticarət dövriyyəsinin isə 69,2 faizini təşkil etmişdir. 1970-ci ildə bu göstəricilər daha da pisləşərək müvafiq surətdə – 53,3; 51; 56,3; 47,7; 89,3; 70,2 və 62,1 faiz olmuşdu. Həmin dövrdə İttifaq miqyasında əhalinin hər 1000 nəfərinə düşən xalq təsərrüfatında məşğul olanların sayı 371 nəfər, o cümlədən sənayedə – 130, ticarət və təchizatda – 27, elmdə isə 13 nəfər təşkil etmişdirsə, Azərbaycan SSR-də bu göstəricilər müvafiq surətdə cəmi – 246; 60; 20 və 7 nəfər və ya Orta İttifaq səviyyəsindən 1,5; 2,1; 1,3 və 1,8 dəfə, adambaşına düşən milli gəlirin artım sürəti isə təqribən 3 dəfə aşağı olmuşdu. Qeyd edilən dövrdə respublika iqtisadiyyatında baş verən geriliyi xarakterizə edən əsas göstəricilərdən biri də ondan ibarət olmuşdur ki, əgər 1940-cı ildə Azərbaycan Respublikası SSRİ-də hasil edilən neftin 72 faizini vermişdirsə, bu göstəricinin səviyyəsi azalaraq 8 faizə düşmüşdür. Bunun başlıca səbəbi həmin dövrün 50-ci illərinin əvvəllərində Qərbi Sibirdə yeni neft yataqlarının kəşf edilməsi nəticəsində daha ucuz və böyük miqyasda neftin çıxarılması ilə bağlı olmuşdur.

**Ümumiyyətlə götürüldükdə** 1966-cı ildən etibarən respublikamızda neft sənayesinin inkişafı ağır vəziyyətə düşmüş və burada neft hasilatının həcmi ildən-ilə azalmağa başlamışdır. Belə ki, altıncı beşilliklə müqayisədə respublikada hasil edilən neftin həcmi 18,8 milyon ton artmışdırsa, səkkizinci beşillikdə bu artımın həcmi cəmi 3,8 milyon ton təşkil etmiş və ya təqribən 5 dəfə azalmışdır. **Bu da bir həqiqətdir ki,** neft sənayesinin inkişafı bilavasitə qazma işlərinin vəziyyəti ilə bağlıdır. Ancaq buna baxmayaraq respublikamızda quyuların qazılması həcmi 1966-1970-ci illərdə 1 milyon metr aşağı düşmüş; qazma işlərinin başa çatdırıldığı 272 quyudan isə cəmi 84-ü və ya 31 faizi isə layihə səviyyəsinə çatdırılmamışdır. *(Azərbaycan nefti dünya siyasətində. Bakı, Azərnəşr. 1998. 387 s.).*

Keçən əsrin 60-cı illərinin əvvəllərində respublikada sürətlə artan qaz istehsalı da onilliyin axırında kəskin şəkildə azalmağa başlamışdı. Buna görə də iqtisadiyyatını bütövlükdə dərin və uzun sürən böhran bürümüş respublikamızı bu ağır vəziyyətdən çıxarmağın yollarının axtarılıb tapılmasına, ona prinsipcə yeni konseptual səviyyədə yanaşma əsasında ölkənin inkişaf planlarının işlənib hazırlanmasına, xalq təsərrüfatında köklü struktur dəyişikliklərinin aparılmasına, təsərrüfatçılıqda və iqtisadi həvəsləndirmədə yeni metodların tətbiq etməsinə böyük ehtiyac var idi. Bütün bu çətin və mürəkkəb vəzifələrin yerinə yetirilməsinin məsuliyyəti isə yenicə hakimiyyətə gəlmiş Heydər Əlirza oğlu Əliyevin üzərinə düşmüşdü. Ölkə rəhbəri seçildiyi cəmi 21 gün sonra onun təşəbbüsü və rəhbərliyi ilə "5" avqust 1969-cu il tarixdə Azərbaycan KP MK-nın məşhur avqust Plenumu öz işinə başladı. **Heydər Əliyevin həmin Plenumdakı məruzəsində Azərbaycanın xalq təsərrüfatında yaranmış böhranlı vəziyyət və onun uzun illər boyu geridə qalması səbəbləri hərtərəfli təhlil edib aşkara çıxarılmış və ondan çıxış yolları müəyyənləşdirilmişdir.**

**Heydər Əliyev çox gözəl başa düşürdü ki, millətin siyasi müstəqilliyi onun iqtisadi azadlığından keçir.** Ona görə də onun rəhbərliyi və bilavasitə iştirakı ilə uzun müddətə Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyası və taktikası işlənib hazırlandı və



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

həyata keçirilməyə başlandı. **Beləliklə, 1969-cu ilin avqust ayında Azərbaycanın tarixində yeni inkişaf dövrünün təməli qoyuldu.**

**Heydər Əliyev Respublikamıza rəhbərlik etdiyi 1969-1982-ci illərdə Azərbaycanın iqtisadi, sənaye, kənd təsərrüfatı və enerji potensialı ilə yanaşı böyük və qüdrətli elmi-intellektual kadr potensialının da yaradılmasına nail olmaqla onun müstəqil dövlət kimi yaşaması və dünya miqyasında tanınmasının, siyasi və iqtisadi müstəqilliyinin, sistemli şəkildə artıb inkişaf edən xarici-iqtisadi əlaqələrinin formalaşmasının, dünya iqtisadiyyatına dərindən və inamla inteqrasiya olunmasının əsasını qoymuş və strateji istiqamətlərini müəyyənləşdirmişdi.** Bu Böyük insan həmin illərdə Yer kürəsi əhalisinin cəmi 0,01 faizinin yaşadığı Azərbaycanı dünyanın ən qüdrətli və super dövlətləri sayılan ABŞ, Fransa, İngiltərə, Almaniya, Yaponiya, İtaliya, Kanada, Çin, Rusiya, Türkiyə və digər ölkələrlə dostluq və hərtərəfli iqtisadi, mədəni, siyasi, elmi və başqa sahələrdə qarşılıqlı əməkdaşlıq etmək səviyyəsinə qaldırmağa nail olmuşdur. **Bu dövr baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatların xarakterinə və xalqın həyat səviyyəsinin yüksəlməsi baxımından Azərbaycanın quruculuq tarixində çox mühüm yer tutur.** Heydər Əliyevin keçmiş İttifaqda və bütövlükdə dünyada günü-gündən artan nüfuz və hörməti, gələcəyi görmək qabiliyyəti sayəsində onun təkidi və tələbi ilə SSRİ hökuməti 1970, 1975, 1976 və 1979-cu illərdə Azərbaycan Respublikası ilə əlaqədar olaraq xalq təsərrüfatının hərtərəfli yüksəlişi və intensiv inkişafını nəzərdə tutan və xalqımızın həyatında sözün əsil mənasında tarixi əhəmiyyəti olmuş beş xüsusi qərar qəbul etmişdir. Bunlara:

- Azərbaycan SSR-də kənd təsərrüfatının inkişaf etdirilməsi üzrə tədbirlər haqqında";
- "Azərbaycan SSR-də xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında";
- "Kənd təsərrüfatı istehsalının daha da intensivləşdirilməsi";
- "Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1976-1980-ci illərdə respublikada sənayenin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi haqqında təkliflərinə baxılmasının nəticələri haqqında"
- Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalının daha da ixtisaslaşdırılması, üzümçülüyün və şərabçılığın inkişaf etdirilməsi tədbirləri haqqında" qərarlar aiddir.

Ulu öndərin rəhbərliyi ilə bu qərarların müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində Azərbaycan Respublikası müharibədən sonrakı dövrdə ilk dəfə olaraq, doqquzuncu və onuncu beşilliklər üçün nəzərdə tutulmuş bütün xalq təsərrüfatı planlarını vaxtından əvvəl və artıqlaması ilə yerinə yetirməyə nail olmuş və beşilliklərin bütün illərində o dövrdə Sovet dövlətinin ən yüksək mükafatı sayılan – SSRİ-nin Keçici Qırmızı bayraqları ilə təltif olunmuşdur. Həmin illərdə respublika vətəndaşlarının 1 milyon 95 min nəfərindən çoxu keçmiş SSRİ-nin müxtəlif orden və medalları ilə, o cümlədən 1007 nəfəri **Lenin ordeni,** 10 min 130 nəfəri **Qırmızı əmək Bayrağı,** 1422 nəfəri **Oktyabr İnqilabı,** 1153 nəfəri **Xalqlar Dostluğu Ordeni** ilə təltif edilmiş, 108 nəfəri, onlardan bir neçə nəfəri isə ikinci dəfə **Sosialist Əməyi Qəhrəmanı** adına layiq görülmüşlər.

1970-1982-ci illərdə respublikamız böyük uğurlara nail olmuş və iqtisadi artım sürətinə görə **Orta İttifaq səviyyəsini xeyli ötüb keçmişdir.** Bu illərdə Azərbaycanda istehsal olunan milli gəlirin həcmi 2,6 dəfə, sənaye məhsulunun həcmi 2,7 dəfə, kənd təsərrüfatı məhsulunun həcmi 2,3 dəfə, ictimai iaşə də daxil olmaqla əmtəə dövriyyəsi 2,1 dəfə, əhaliyə göstərilən xidmətlərin həcmi isə 2,9 dəfə artmışdı. 1969-1982-ci illərdə respublikamızda istehsal edilən 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac edilmişdi. Böyük iftixar hissi ilə qeyd edilməlidir ki, Heydər Əliyevin şəxsi təşəbbüsü və rəhbərliyi ilə keçən əsrin 70-ci illərində İttifaq hökumətindən çoxlu vəsait alınması hesabına Mingəçevirdə hər



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

birinin gücü 300 meqavatt olan 8 böyük enerji bloku və 5 min meqavatt elektrik enerjisi istehsalı gücünə malik olan energetika sistemi yaradılmış, Bakı neft emalı müəssisələrinin yenidən qurulması, neftin ikiqat emalı üçün qurğu və avadanlıqların quraşdırılması ilk dəfə olaraq həyata keçirilmiş, 445,2 min şagird yerlik 849 ümumtəhsil məktəbləri, çoxlu tibb, mədəniyyət, ticarət və ictimai iaşə müəssisələri, mehmanxanalar və digər sosial obyektlər tikilib istifadəyə verilmiş, bir milyon mənzil təbii qazla təmin edilmiş, 2,6 min kəndə qaz kəməri çəkilmiş, Kür su kəmərinin istismarı, fəaliyyətdə olan digər su kəmərinin genişlənməsi və yenidən qurulması hesabına Bakı şəhərinin su təminatı 2 dəfə yaxşılaşmışdı.

1969-1982-ci illərdə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin ən mühüm istiqamətlərindən biri də demoqrafik vəziyyətin və əhalinin səmərəli məşğulluğun təmin edilməsinin nizamlanması ilə bağlı kompleks tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsindən ibarət olmuşdur. Məsələ burasındadır ki, hələ 7-ci və 8-ci beşilliklərdə Azərbaycanda sosial-iqtisadi inkişafın planlaşdırılmasında bir sıra ciddi nöqsanların buraxılması, o cümlədən keçən əsrin 50-ci və 60-cı illərinin əvvəllərində burada yaranmış demoqraf vəziyyətin lazımınca qiymətləndirilib düzgün nəzərə alınmaması respublikada sürətlə artmaqda olan əmək ehtiyatlarının sayı və yeni yaradılan iş yerləri arasındakı tarazlığın pozulmasına səbəb olmuş, bu isə öz növbəsində mövcud olan əmək ehtiyatlarının xeyli bir qisminin ictimai istehsalından kənarda qalmasına və onların əməyindən tam və səmərəli istifadə edilməməsinə gətirib çıxarmışdı. Belə ki, Sovet hakimiyyəti illərində bir neçə onilliklər ərzində respublikamızda əhalinin və onun əmək qabiliyyətli hissəsinin orta illik artım sürəti Orta Asiya Respublikaları istisna olmaqla İttifaqda və bütün başqa müttəfiq respublikalarda olduğuna nisbətən təqribən 2,4-2,5 dəfə yüksək olmuş və bir qayda olaraq burada yaradılan yeni iş yerlərinin sayı həmişə əmək ehtiyatlarının sayından geridə qalmışdı. **Bu problemin həlli ilk növbədə respublikada özünəməxsus demoqrafiya və əhalisakinliyi sahəsində dövlət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsini tələb edirdi. Təsadüfi deyildir ki, Ulu öndər Heydər Əliyevin** uzun illər ərzində keçmiş SSRİ-nin tərkibində olmuş Azərbaycanda kəskinləşməkdə olan əhali sakinliyi, məşğulluq və işsizlik problemlərinin gələcəkdə törədə biləcəyi mənfi sosial-iqtisadi və demoqrafik nəticələri əvvəlcədən hiss edərək, çox böyük uzaqgörənliklə, hələ keçən əsrin 80-ci illərinin əvvəllərində dünya ölkələri və keçmiş SSRİ rəhbərləri arasında ilk dəfə olaraq dövlət səviyyəsində **"Respublikanın demoqrafik inkişafı və əhalinin işlə təmin edilməsi üçün elmi surətdə əsaslandırılmış uzunmüddətli konsepsiyanın"** işlənib hazırlanması vəzifəsini irəli sürüb əsaslandırmışdır. Bu məsələdən bəhs edərək Heydər Əliyev qeyd etmişdir ki, respublikada "məhsuldar qüvvələrin yerləşdirilməsini daha da təkmilləşdirmək lazımdır. Söhbət respublikada ictimai istehsalatda çatışmayan əmək qabiliyyətli əhalinin xüsusi çəkisinin yüksək olduğu, bu əhalinin çevik hissəsinin, xüsusən cavan oğlanların işləmək üçün əsasən Bakı şəhərinə getmək istədiyi ayrı-ayrı zonaların və rayonların iqtisadi inkişaf səviyyələrini planauyğun şəkildə bərabərləşdirməkdən gedir. **Başqa çətinliklərlə yanaşı, bu gələcəkdə əhalinin artması üçün demoqrafik çətinliklər yaradacaqdır"**. Bu çətinlikləri aradan qaldırmaq məqsədilə 1971-1985-ci illərdə respublikanın xalq təsərrüfatına o zaman üçün çox böyük məbləğ hesab olunan 42,2 milyard manatdan artıq vəsait qoyulmuş, 37,4 milyard manatlıq əsas fondlar, müasir və yüksək texniki səviyyəli avadanlıqlarla təchiz olunmuş, 249 iri sənaye müəssisələri tikilib işə salınmış, respublikamız üçün yeni olan müasir elektronika və radiotexnika sənaye sahələri yaradılmış, sənaye istehsalının strukturu, kimya, neft kimyası, elektronika, maşınqayırma və cihazqayırma sahələrinin, kənd təsərrüfatının strukturu isə pambıqçılıq və üzümçülük kimi yüksək əmək tutumlu sahələrin inkişafı hesabına xeyli dəyişdirillib təkmilləşdirilmiş, habelə yüksək ixtisaslı mütəxəssislər və fəhlə kadrları hazırlanmasına diqqət artırılmışdır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**1971-1980-ci illərdə ölkə iqtisadiyyatına yönəldilmiş kapital qoyuluşunun həcmi isə 1920-1970-ci illəri əhatə edən 50 il ərzindəkindən 2,1 dəfə, o cümlədən sənayedə – 2,1 dəfə, kənd təsərrüfatında – 4,2 dəfə, nəqliyyat və rabitədə – 2,2 dəfə, tikintidə – 3,6 dəfə, mənzil tikintisində (fərdi tikintilərsiz) isə – 1,5 dəfə çox olmuşdur. 1970-1985-ci illərdə** respublika iqtisadiyyatında məşğul olanların sayı 1,5 dəfədən çox artaraq 1543 min nəfərdən 2357 min nəfərə gəlib çatmış, xalq təsərrüfatında məşğul olanların sayı isə İttifaq miqyasında olduğuna nisbətən 2,3 dəfə, o cümlədən fəhlə və qulluqçuların sayı təqribən 2 dəfə (95,2%) sürətlə çoxalmışdır. **Heydər Əliyevin təşəbbüsü və təkidli tələbi ilə Sov.İKP MK tərəfindən qəbul edilmiş təkcə iki qərarın:**

- **"1976-1980-ci illərdə Azərbaycanda sənayenin ayrı-ayrı sahələrinin"** və
- **"Kənd təsərrüfatı istehsalının ixtisaslaşdırılması, üzümçülüyün və şərabçılığın inkişaf etdirilməsinin"** həyata keçirilməsi nəticəsində həmin dövrdə ölkə iqtisadiyyatına 255,6 min nəfər əlavə iş qüvvəsi cəlb edilmişdir.

1961-1970-ci illərdə kənd təsərrüfatında (dövlət müəssisələrində və kolxozlarda) məşğul olanların sayı 28,2 min nəfər azaldığı halda, 1971-1980-ci illərdə onların sayı 161,5 min nəfər artmışdı.

Heydər Əliyevin ən mühüm xidmətlərindən biri də 1969-1982-ci illərdə respublikamız üçün əlahiddə əhəmiyyəti olan yüksək ixtisaslı kadrların, xüsusilə milli kadrların hazırlığına ciddi fikir verməsi və qayğı göstərməsindən ibarət olmuşdur. Bu dövrdə Azərbaycanda ali məktəblərin sayı artaraq 12-dən 17-ə, orada təhsil alanların sayı isə 70 min nəfərdən 100 min nəfərə, xalq təsərrüfatında məşğul olan əhalinin hər min nəfərinə düşən ali və orta (tam və natamam) təhsili olanların sayı 33,1 faiz artaraq 674 nəfərdən 897 nəfərə, xalq təsərrüfatında çalışan ali və orta ixtisas təhsilli mütəxəssislərin sayı isə 2,2 dəfə artaraq 274 min nəfərdən 606,2 min nəfərə, ali və orta ixtisas məktəblərində təhsil alanların sayı 6,5 faiz artaraq 171 min nəfərdən 182,1 min nəfərə, həmin təhsil ocaqlarını bitirən mütəxəssislərin sayı isə 39,2 faiz artaraq 31,9 min nəfərdən 44,4 min nəfərə çatmışdır. Respublikamızın xalq təsərrüfatı təkcə onuncu və on birinci beşilliklərdə 400 min nəfərdən çox ali və orta ixtisas təhsilli mütəxəssis almışdı. Həmin dövrdə Azərbaycanın daxilində hazırlanan ali təhsilli mütəxəssislərlə yanaşı, Moskvanın, Leninqradın, Kiyevin, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı ali elm və təhsil ocaqlarına 3500 azərbaycanlı gənc göndərilmişdi. Bu dövrdə hər il ali təhsil almaq üçün respublikadan kənara 800-dən artıq tələbə göndərilməsi ənənə halını almışdı. 1969-cu ildə respublikadan kənarda təhsil almağa cəmi 47 nəfərin göndərilməsi planlaşdırılmış və onların da əksəriyyəti başqa millətlərdən idisə, 70-ci illərin axırlarında bu rəqəm hər il üçün 700-800 nəfər (80-ci illərin əvvəllərində isə hər il 1000-1400 nəfər) təşkil etmiş və onların çoxu azərbaycanlı olmuşdur. 1981-ci ildə Moskva, Leninqrad, Kiyev və başqa şəhərlərdə 244 ixtisas üzrə təhsil alan azərbaycanlı oğlan və qızların sayı 3600 nəfəri ötüb keçmişdi.

Azərbaycan xalqının bu gününü və gələcəyini qabaqcadan görən xalqımızın böyük oğlu Heydər Əliyev milli hərbi kadrların hazırlanmasına da böyük qayğı və diqqət göstərmişdi**. 1972-ci ildən başlayaraq hər il 300-400 nəfər azərbaycanlı gənc təhsil almaq üçün müxtəlif hərbi məktəblərə göndərilmiş və onların sayı 80-ci illərin əvvəllərində 800-1000 nəfərə gəlib çatmışdı.** Bütünlükdə götürüldükdə isə keçən əsrin qeyd edilən dövrdə keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində respublikamız üçün 18 min nəfərdən çox yüksək ixtisaslı mütəxəssis hazırlanmışdır. Ulu öndərimiz ölkəmizə ikinci dəfə rəhbərliyə qayıtdıqdan sonra həmin məsələdən bəhs edərək demişdir ki, o vaxtlar azərbaycanlıları ayrı-ayrı yollarla Sovetlər İttifaqının müxtəlif yerlərinə göndərməklə həmin yerlərdə dayaq yaratmaq istəyirdim. İndi isə sərhədlər açılmış və azərbaycanlılar hər yerdə yaşaya bilərlər. Bir şərtlə ki, onlar gərək millətini, dilini, torpağını, ana vətənini



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

unutmasınlar. **Bu Ulu öndərimizin öz vətəninə və millətinə nə qədər böyük məhəbbətlə bağlı olduğunu göstərir.**

Azərbaycana 23 il rəhbərlik etmiş Heydər Əliyevin ən nadir və böyük şəxsiyyət olmasını təsdiqləyən cəhətlərindən biri də ondan ibarətdir ki, o bütün məsələlərə – istər xarici və daxili siyasət, istərsə də böyük və balaca məsələlərin həlli sahəsində olsun fərqi yoxdur, onlara həmişə elmi cəhətdən yanaşmağa üstünlük verərdi. Təsadüfi deyildir ki, Heydər Əliyev hələ 1969-cu ildə respublikamıza rəhbərliyə gəldiyi ilk günlərdən elmin inkişaf etdirilməsi ilə bağlı məsələlərə xüsusi diqqət yetirmiş və daim ona qayğı göstərmişdir. O, Azərbaycan KP MK-nın məşhur avqust (1969-cu il) plenumunda respublika elminin inkişafında yaranmış ağır vəziyyətindən narahat olaraq demişdir:

***“Elmi idarələrimizin fəaliyyətində hələ ciddi nöqsanlar vardır. Elmlər Akademiyası, bir sıra sahə elmi idarələri elmi-texniki tərəqqinin sürətləndirilməsi uğrunda, tamamlanmış işlərin istehsalata tətbiqi uğrunda mübarizədə kifayət qədər əzmkarlıq göstərmirlər… Dissertasiyaların heç də hamısı lazımi nəzəri səviyyədə yazılmır. Aspiranturada vəziyyət yaxşı deyildir. Aspirantların xeyli hissəsi namizədlik dissertasiyalarını vaxtında hazırlaya bilmir. Alimlik dərəcəsi alanlar arasında nazirliklərin və digər mərkəzi idarələrin rəhbər işçiləri də az deyildir. Onlar özlərinə tapşırılmış işin zərərinə olaraq dissertasiya yazır, bəzən bunun üçün hətta öz vəzifələrinin imkanlarından istifadə edirlər… Elə etmək lazımdır ki, elmə yalnız onu həqiqətən zənginləşdirənlər gəlsinlər”.***

Heydər Əliyevin həmin plenumda alimlərimizin qarşısında qoyduğu proqram xarakterli vəzifələr onlar tərəfindən birmənalı şəkildə qəbul edilərək yüksək vətənpərvərlik hissilə yerinə yetirilmişdir. Bunu ondan görmək olar ki, əgər 1945-1970-ci illəri əhatə edən 25 il ərzində Sovet elminin ən mühüm nailiyyətləri sırasına Azərbaycan Elmlər Akademiyası alimlərinin cəmi 170 əsəri daxil edilmişdirsə, 1971-1980-ci illəri əhatə edən cəmi 10 il ərzində onların sayı 486-a çatmış və ya 2,8 dəfə artmışdı. Akademiyamızın alimləri Elmlər Akademiyasının varlığının birinci on ili ərzində (1945-1955-ci illərdə) cəmi 5 elmi nəticə əldə etmişlərsə, 1971-1975-ci illərdə bu nəticələrin sayı 96-nı ötüb keçmiş və ya 19,2 dəfə artmışdı. 1969-1982-ci illərdə Azərbaycan Elmlər Akademiyasında çalışan işçilərin sayı 1,9 dəfə artaraq 7892 nəfərdən 15072 nəfərə, o cümlədən elmi işçilərin sayı 45,6 faiz artaraq 3431 nəfərdən 4995 nəfərə, elmlər doktorlarının sayı 1,5 dəfədən çox artaraq 188 nəfərdən 285 nəfərə, elmlər namizədlərinin sayı isə 1,6 dəfədən çox artaraq 1275 nəfərdən 2068 nəfərə çatmışdır.

*Bütün bu yuxarıda deyilənlərin nəticəsi idi ki, SSRİ-nin dağılması ərəfəsində Keçmiş İttifaqın tərkibində olmuş respublikaların yalnız ikisi tam müstəqil olaraq öz iqtisadiyyatını idarə etmək imkanına malik idi:* ***Rusiya*** *və* ***Azərbaycan!***

Həmin illərdə Azərbaycanın bu səviyyəyə qalxmasının əsas səbəbi isə keçən əsrin 70-80-ci illərdə ona məhz Heydər Əliyevin rəhbərlik etməsi ilə izah edilir. **1982-ci ilin sonunda Heydər Əliyevin SSRİ rəhbərliyinə irəli çəkilməsindən sonra, xüsusilə də** 1988-1993-cü illərdə Azərbaycana rəhbərlik etmiş bəzi səriştəsiz adamların fəaliyyətsizliyi üzündən SSRİ vaxtı xüsusilə, keçən əsrin 70-80-ci illərində burada yaradılmış **böyük iqtisadi potensial**



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**ilbəil dağıdılıb talan edilməyə başlamış və 1991-1993-cü illərdə özünün kulminasiya mərhələsinə qədəm qoymuşdur. Ulu öndərimiz Heydər Əliyevin dediyi kimi bu dövrdə:** "Vəziyyət elə təhlükəli xarakter almışdır ki, 1991-ci ildə əlverişli tarixi şəraitin və taleyin xalqımıza bəxş etdiyi imkandan yaranmış müstəqil dövlətimiz qəsdən və yenidən səriştəsizliklər yaranan idarəsizlik nəticəsində real itirilmək təhlükəsi ilə üz-üzə qalmışdır. Beləliklə 1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər, həm də bu illərdə Azərbaycan "**Ölüm ya olum" dilemması** qarşısında qalmışdı".

**Respublikamızın yenidən belə ağır vəziyyətə düşdüyü bir vaxtda** – 1993-cü ilin 15 iyununda xalqımızın tam əksəriyyətinin təkidli tələbi ilə Heydər Əliyevin ikinci dəfə respublika rəhbərliyinə gətirilməsi Azərbaycanı və bütünlükdə xalqımızı çıxılmaz fəlakətdən xilas etdi və onun **qurtuluşu başlandı.** Öz xalqından heç bir təmənnası olmayan bu böyük şəxsiyyət ikinci dəfə hakimiyyətə qayıdarkən: **"Mənim həyatım xalqa məxsusdur və bundan sonra qalan hissəsini də xalq üçün əsirgəməyəcəm. Həyatımın mənasını ancaq xalqa sədaqətlə xidmət etməkdə görürəm. Mənim üçün ən böyük mükafat bundan sonra da xalqın etimadını doğrultmaqdan ibarətdir"** - demiş və yenidən **respublikaya rəhbərlik etməyə başladığı ilk gündən** – Azərbaycanda həyata keçirilən bütün iqtisadi islahatların və köklü dəyişikliklərin təşkilatçısı və ilhamvericisi olmuşdur. Onun gərgin əməyi, səriştəsi, böyük təşkilatçılıq qabiliyyəti, uzaqgörən daxili və xarici siyasəti nəticəsində:

- Azərbaycanda ictimai-siyasi sabitlik bərpa edilmiş,
- Ölkəmiz Avropa Şurasının tam üzvlüyünə qəbul olunmuş;
- Məşhur **"Əsrin müqaviləsi"** imzalanmış;
- Neft strategiyası işlənib hazırlanmış;
- Dünyanın bir çox super dövlətləri ilə neft kontraktları bağlanmış;
- **Qədim İpək yolu** bərpa olunmağa və bu məqsədlə **TRASEKA** proqramı həyata keçirilməyə başlamış;
- Dünyanın bir çox ölkələri ilə iqtisadi əlaqələrimiz genişlənmiş və möhkəmlənmişdir.

**Heydər Əliyevin ən böyük və tarixi xidmətlərindən biri də** tikintisi başa çatmaqda olan və dünyada analoqu olmayan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin çəkilməsi, Azərbaycanı Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin başlıca iştirakçısına cəlb edə bilməsindən ibarətdir. Onun Neft strategiyasının uğurla həyata keçirilməsinin nəticəsi idi ki, cəmi bir neçə il ərzində ölkəmizə 10 milyarddan çox ABŞ dolları cəlb edilmiş və həyata keçirilən kompleks tədbirlər nəticəsində Azərbaycanda 1989-cu ildən ötən dövr ərzində ilk dəfə olaraq 1996-cı ildə iqtisadiyyatda dirçəliş baş vermiş və **əhalinin pul gəlirlərinin artım səviyyəsi qiymətlərin artım səviyyəsini üstələmişdir**. 1991-1995-ci illərdə respublikamızda iqtisadi inkişafın ən əsas makroiqtisadi göstəricisi sayılan Ümumi Daxilli Məhsulun (ÜDM) real həcmi ildə 20-25 faiz, sənaye məhsulu istehsalı isə 15-20 faiz azaldığı halda, **1993-2003-cü illərdə** ÜDM istehsalı o vaxtın qiymətləri ilə 22,3 dəfə artaraq 157,1 milyard manatdan 35,1 trilyon manata, adambaşına düşən ÜDM-un həcmi isə 20,3 dəfə artaraq 21,3 min manatdan 4320 min manata, əhalinin pul gəlirlərinin məbləği 17,9 dəfə artaraq 135,5 milyard manatdan 24,2 trilyon manata, adambaşına düşən pul gəlirlərinin məbləği 16,2 dəfə artaraq 18,4 min manatdan 2983,4 min manata, iqtisadiyyatda məşğul işçilərin orta aylıq əmək haqlarının məbləği isə 174,1 dəfə artaraq 2,2 min manatdan 383,1 min manata gəlib çatmışdır. 1993-2003-cü illərdə Respublikamızda 3 minə qədər yeni sənaye müəssisəsi açılmış və 2003-cü ilin əvvəlində onların sayı 5202-yə gəlib çatmışdı. Heydər Əliyevin həyata keçirdiyi "açıq qapı" siyasəti nəticəsində müqayisə edilən dövrdə ölkəmizdə fəaliyyət göstərən xarici və müştərək müəssisələrin sayı 3 dəfədən çox artmışdır. Respublikanın təkcə sənaye sahəsində 40 dövləti təmsil edən 167 xarici investisiyalı müəssisə fəaliyyət göstərmiş və onlar tərəfindən minlərlə iş yerləri açılmışdır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Heydər Əliyevin ən böyük xidmətlərindən biri də onun azərbaycan elminə və onun məbədgahı sayılan Elmlər Akademiyasına daim hamilik etməsi, keçən əsrin 70-ci illərində bu elm məbədgahına dünya şöhrəti qazandırması, 90-cı illərin əvvəllərində isə onun bağlanmasının qarşısını alıb yenidən dirçəldilməsinə nail olmasıdır. O, çox gözəl bilirdi ki, elmi inkişaf etdirmədən, ölkə iqtisadiyyatında istənilən nailiyyətlər əldə etmək, onun dinamik və səmərəli inkişafına nail olmaq qeyri-mümkündür. Ancaq çox təəssüflər olsun ki, 1992-1993-cü illərdə elə vəziyyət yaranmışdı ki, Elmlər Akademiyasını bağlamaq qərarına gəlmişdilər. Həmin illərdə və ondan sonrakı ilk dövrlərdə də maddi çətinliklər üzündən elmi işçilərin bir çoxu elmdən uzaqlaşaraq ticarət sahəsinə, kommersiya strukturlarına, özəl qurumlara və xarici ölkələrə işləməyə üz tutmuşlar. Ancaq minlərlə elm fədailəri, elm fanatikləri, əsl elmsevərlər, vətən elmini qoruyub saxlamaq arzusu ilə yaşayanlar bu müqəddəs elm ocağını tərk etməmiş və burada qalıb işləməyə üstünlük vermişlər. Çox keçmədi ki, Ulu öndər Heydər Əliyev **1997-ci ilin 31 yanvarında prezident sarayında Elmlər Akademiyasının üzvləri ilə görüşdü və həmin görüşdə dedi ki: “XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri ölkəmizdə elmin, təhsilin sürətlə inkişaf etməsidir… Biz bununla fəxr edirik….. Azərbaycan Elmlər Akademiyası respublikamızın ən yüksək elm müəssisəsidir…. Biz Akademiyanın hörmətini qoruyub saxlamalıyıq. Heç vaxt imkan vermək olmaz ki, Akademiyamız, yüksək səviyyəli elmi-tədqiqat institutlarımız yaranan cürbəcür özəl elmi müəssisələr arasında ərisin, itsin. Buna yol vermək olmaz!”.** Bunu nəzərə alan Ulu Öndərimiz Heydər Əliyev ölkəmizdə elmin inkişafı, elmi-texniki potensialın qorunub saxlanması, elm və təhsil sahəsində yüksək ixtisaslı kadrların hazırlanması, onlara qayğı göstərilməsi, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması kimi sahələrdə bir sıra mühüm qərarlar qəbul etdirmişdir və onun:

- 2001-ci il 15 may tarixli “**Azərbaycan Milli Elmlər Akademiyası haqqında**” Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına ən yüksək ali dövlət elmi təşkilatı statusu verilməsi;
- 2001-ci il iyun ayında Akademiyanın üzvlərinin sayının artırılması;
- 2001-ci il avqustun 7-də Akademiyanın Naxçıvan bölməsinin yaradılması;
- 2003-cü il yanvar ayının 4-də Milli Elmlər Akademiyasının statusu, Nizamnaməsi və prezidentinin təsdiq edilməsi;
- 2004-cü ilin yanvar ayının əvvəllərində elmlər namizədi və elmlər doktoru elmi dərəcələrinə görə vəzifə maaşlarının 5 dəfə;
- Akademiyanın həqiqi və müxbir üzvlərinin rütbə maaşlarının və bütünlükdə Akademiyanın əməkdaşlarının maaşlarının nəzərəçarpacaq dərəcədə artırılması;
- Akademiyanın maddi-texniki bazasının və əmək haqqı fondunun artırılması ilə bağlı Fərman və Sərəncamları;
- Nəhayət Heydər Əliyevin “Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir, onu qoruyub saxlamaq lazımdır; - deməsi buna canlı misaldır.

Məhz bütün bunlara görə də bu gün Akademiyamızın yaşayıb fəaliyyət göstərməsi üçün biz Ulu Öndərimiz Heydər Əliyev cənablarına minnətdarıq.

Ulu öndər Heydər Əliyevin yolunu layiqincə davam etdirən Prezident İlham Əliyev cənabları da ölkəmizə rəhbərliyə başladığı ilk günlərdən elm adamlarına böyük qayğı ilə yanaşmış, alimlərimizin əməyinə yüksək qiymət vermiş, onların qayğısına qalmış və problemlərinin həllini daim diqqət mərkəzində saxlamışdır. Atası Ulu öndər Heydər Əliyevin yolunu yaradıcılıqla davam etdirən Prezident İlham Əliyevin də bütün sahələrdə həyata keçirdiyi islahatların uğurla başa çatmasının əsil səbəbi əgər bir tərəfdən onun qətiyyəti, rəhbərlik etmək qabiliyyəti və praqmatik düşüncəyə malik olması ilə bağlıdırsa, digər tərəfdən də həyata keçirdiyi islahatlarda elmi yanaşmaya üstünlük verməsi və Ulu öndərimizin



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

ideyalarına söykənməsi ilə bağlıdır. Təsadüfi deyildir ki, Ulu öndər Heydər Əliyev 2003-cü ilin oktyabr ayının 1-də ölkə prezidentliyinə İlham Əliyevin namizədliyini irəli sürərkən Azərbaycan xalqına müraciətində demişdir ki: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri planları, işləri Sizinköməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Böyük Öndər Heydər Əliyevin həmin müraciətini Azərbaycan vətəndaşları ürəkdən dəstəkləmiş, xalqımızın mütləq əksəriyyəti hələ 42 yaşı tamam olmamış İlham Əliyevə səs verərək onu 2003-cü ilin 15 oktyabrında özünə prezident seçdi. İlham Əliyev cənabları isə oktyabrın 31-də dövlətə və xalqa sədaqət andı içərkən demişdir: "**Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz Cənab Heydər Əliyevə müraciət edərək deyirəm: Əziz Prezident, əsərin olan Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik"**. Hələ prezident seçkiləri ərəfəsindəki çıxışlarında "**Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam"** - deyərək seçicilərə müraciət edən cənab İlham Əliyev prezident seçildikdən sonra öz vədinə əməl edərək son 15 il ərzində Ulu Öndərimiz Heydər Əliyevin elmi həqiqətlərə əsaslanan iqtisadi inkişaf strategiyasına və siyasi xəttinə sadiq qalaraq onun işini layiqincə davam etdirərək Azərbaycanı dünyanın ən dinamik inkişaf edən lider dövlətinə çevirməyi bacarmışdır. İlham Əliyev cənablarının özünün də haqlı olaraq dediyi kimi: **Azərbaycan heç zaman indiki kimi güclü olmamışdır. İndi Azərbaycan inkişaf, tərəqqi və sabitlik ölkəsi kimi dünyada şöhrət qazanmışdır.** Təsadüfi deyildir ki, Azərbaycan xalqı öz ümummilli liderinin çağırışına cavab verərək 2003-cü ilin oktyabr ayında və sonrakı 2008-ci və 2013-cü illərdə olduğu kimi, 2018-ci ilin "11" aprelində keçirilmiş prezident seçkilərində də **böyük etimad göstərərək İlham Əliyev cənablarını dördüncü dəfə, bu dəfə isə daha 7 il müddətinə özünə prezident seçdi.** Prezident İlham Əliyev "18" aprel 2018-ci ildə Azərbaycan Respublikası Milli Məclisində keçirilmiş andiçmə mərasimindəki nitqində demişdir: "Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən Ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz Ulu öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur".

**İlham Heydər oğlu Əliyev cənabları 2003-cü ildə ölkə prezidenti seçilərkən** – öz xalqı, ölkəsi qarşısında üzərinə götürdüyü çox şərəfli, şərəfli olduğu qədər də ağır vəzifənin öhdəsindən bacarıqla gələrək sahib durduğu **siyasi kursu ləyaqətlə yerinə yetirməklə malik olduğu bütün keyfiyyətlərinə görə xalqımızın lideri səviyyəsinə yüksəlmişdir.** Son 15 il ərzində prezident İlham Əliyev cənabları atası Ulu öndər Heydər Əliyevin elmi əsaslara söykənən iqtisadi inkişaf strategiyasını daha da inkişaf etdirərək **Azərbaycanı dünyanın lider dövlətləri sırasına, onun iqtisadi inkişaf səviyyəsinin isə keyfiyyətlə yeni inkişaf mərhələsinə keçməsinə nail olmuşdur.** Bunun üçün Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətə başladığı ilk günlərdən bir sıra qətiyyətli tədbirlər görmək. fərman və sərəncamlar imzalamaqla **Ulu öndər Heydər Əliyevin apardığı siyasəti davam etdirmək niyyətinə olduğunu açıq-aşkar nümayiş etdirmişdir.** Onun:



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- 2003-cü il 24 noyabr tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında";
- 2004-cü il 11 fevral tarixli "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında";
- 2004-cü il 1 iyul tarixli "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında";
- 2005-ci il 11 noyabr tarixli "Azərbaycan Respublikasında demoqrafiya və əhalisakinliyinin inkişafı sahəsində Dövlət Proqramının təsdiq edilməsi haqqında";
- 26 oktyabr 2005-ci il tarixli **"Azərbaycan Respublikasının məşğulluq strategiyasının (2006-2015-ci illər) təsdiq edilməsi haqqında";**
- 2009-cu il 14 aprel tarixli **"Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" haqqında;**
- "2014-cü il 27 fevral tarixli **"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında;**
- 30 oktyabr 2018-ci il tarixli **"2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının təsdiq edilməsi haqqında";**
- "29" yanvar 2019-cu il tarixli **"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"-nın** təsdiq edilməsi haqqında və digər fərman və sərəncamları bu deyilənlərə əyani sübutdur.

Bütün bu fərman və sərəncamlarda ölkəmizin iqtisadi, sosial və demoqrafik vəziyyəti sahəsində əldə edilmiş uğurlu nəticələri və müsbət meyllərin qorunub saxlanılması, onların ardıcıl və məqsədyönlü şəkildə davam etdirilməsi, regionların tarazlı və üstün inkişafının təmin olunması, əhalinin normal təkrar istehsalı prosesinin təmin edilməsi, onların sağlamlığının və həyat şəraitinin yaxşılaşdırılması, əmək ehtiyatlarının, o cümlədən qaçqın və köçkünlərin məşğulluğunun artırılması ilə bağlı hökumət və dövlət orqanları qarşısında duran konkret vəzifələr və onların həyata keçirilməsi mexanizmləri verilmişdir. Bu sahədə Prezident İlham Əliyevin apardığı qətiyyətli və məqsədyönlü iqtisadi siyasətin nəticəsidir ki, ölkə iqtisadiyyatını son 15 il (2003-2018) 3,2 dəfə, sənaye istehsalı 2,6, qeyri-neft sektoru üzrə ÜDM-un həcmi 2,8, qeyri-neft sənaye istehsalı 2,2, kənd təsərrüfatı 1,7 dəfə artmışdır. Nəticədə ölkəmizin dövlət büdcəsinin gəlirləri 16,7 dəfə artaraq 2003-cü ildəki 1,2 milyard manatdan 2018-ci ildə 20,1 milyard manata, dövlət büdcəsinin qeyri-neft sektoru üzrə gəlirləri isə 2003-cü ilə nisbətən 11,4 dəfə artaraq 2017-ci ildə 8,6 milyard manata çatmışdır. Bu dövrdə əsas kapitala yönəldilmiş vəsaitlərin məbləği 4,4 dəfə artaraq 3,8 milyard manatdan 16,8 milyard manata qalxmış, valyuta ehtiyatlarımızın həcmi isə 28,1 dəfə artaraq 2002-ci ildəki 1,6 milyard ABŞ dollarından 2018-ci ildə 45 milyard ABŞ dollarına çatmışdır. **Əlamətdar haldır ki,** hazırda ölkəmizin xarici dövlət borcları ÜDM-un cəmi 20 faizini təşkil edir. Bu da **dünya miqyasında ən yaxşı göstərici hesab olunur.** İndi respublikamız xarici sərmayələrin qoyuluşu səviyyəsinə görə də MDB ölkələri arasında **lider dövlətə çevrilmiş** və son 16 il ərzində ölkə iqtisadiyyatına 260 milyard ABŞ dollarından artıq sərmayə yatırdılmışdır. Bütün bunların nəticəsidir ki, bu illər ərzində ölkəmizdə təqribən 2 milyon yeni iş yeri açılmış, onların 1,4 milyonu və ya 70 faizindən çoxu daimi iş yerlərinin payına düşmüş və həmin iş yerlərinin 72 faizindən çoxu ölkənin regionlarında yaradılmışdır. Bu dövrdə respublika iqtisadiyyatında məşğul olanların sayı 19,8 faiz və ya 787,3 min nəfər artaraq 3972,6 min nəfərdən 4759,9 min nəfərə gəlib çatmış, işsizlərin sayı 36,9 faiz və ya 148,1 min nəfər azalaraq 400,9 min nəfərdən 252,8 min nəfərə, işsizlik səviyyəsi isə 4,7 faiz azalaraq 9,7 faizdən 5 faizə düşmüşdür. Son 15 il ərzində respublikamızda bazar münasibətlərinin formalaşması və inkişafına uyğun olaraq iqtisadiyyatın və deməli həm də



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**əhalinin məşğulluq quruluşunda da əhəmiyyətli dəyişiklik baş vermişdir.** Belə ki, əgər 1995-ci ildə ölkəmizin dövlət sektorunda məşğul olanların 56 faizi çalışırdısa, 2017-ci ildə bu göstərici azalaraq 24,6 faizə enmiş, qeyri-dövlət sektorunda məşğul olanların xüsusi çəkisi isə 21,4 faiz artaraq 44 faizdən 65,4 faizə qalxmışdır. Bu isə o deməkdir ki, indi ölkəmizdə yeni iş yerlərinin yaradılması daha çox özəl sektorun inkişafından asılıdır. Ona görə də Azərbaycan dövləti bu sektorun, xüsusilə də kiçik biznesin inkişafına daha çox qayğı göstərir. Bunu ondan görmək olar ki, 2003-2017-ci illərdə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 34535 sahibkara 2,1 milyard manat güzəştli kredit verilmiş və burada 154 minə yaxın yeni iş yeri açılmışdır. Həmin kreditlərin 71,6 faizi aqrar sektorun, 28,4 faizi isə digər sahələrin inkişafına yönəldilmişdir.

**Son 15 ildə əldə olunmuş ən müsbət dəyişikliklərdən biri də dövlət büdcəsinin sosialyönümlü xərclərinin 10 dəfə artaraq 7 milyard manata, o cümlədən sosial müdafiə və sosial təminat xərclərinin 11 dəfə artaraq 2,4 milyard manata, səhiyyə xərclərinin 12,7 dəfə artaraq 55,3 milyon manatdan 704,9 milyon manata, orta aylıq əmək haqqının 8,4 dəfə artaraq 528,2 manata çatması, yoxsulluğun səviyyəsinin isə 8,8 dəfə azalaraq 44,7 faizdən 5,4 faizə düşməsidir.** Eyni zamanda bu illər ərzində ölkədə 3100-dən çox məktəb, 640-dan çox xəstəxana inşa edilmiş və təmir olunmuşdur. Təkcə 2008-ci ildə 5903 məcburi köçkün ailəsinə yeni evlər, mənzillər verilmişdir ki, bu da son illər ərzində ən rekord göstəricidir. Həmin il şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə 626 mənzil verilmişdir. Bu il, yəni 2019-cu ildə isə onlara 800-ə yaxın mənzil veriləcəyi və köçkünlər üçün yeni şəhərciklər tikilməsi nəzərdə tutulmuşdur. Bunun üçün ölkəmizin hər cür imkanları vardır. Təkcə 2018-ci ildə ölkə iqtisadiyyatına 17,2 milyard manat vəsait qoyulmuş və respublikamızın ərazisində 118 mindən çox daimi iş yerləri yaradılmış, Dövlət Məşğulluq Xidməti tərəfindən 51 min 774 nəfər işlə təmin edilmiş. 118 min 138 nəfər peşə yönümü məktəblərinə, 2914 nəfər peşə hazırlığı kurslarına cəlb olunmuş, 8760 nəfərə isə işsizlikdən sığorta və müavinət verilmişdir. Həmin ildə ölkəmizin İcmal büdcəsinin gəlirləri 31 milyard 35 milyon manat, xərcləri isə 22 milyard 719 milyon manat təşkil etmişdir. Onun 31,7 faizi və ya 7 milyard 197 milyon manatı sosialyönümlü xərclərin payına düşmüşdür. Hazırda ölkəmizin xarici borcu Ümumi Daxili məhsulumuzun cəmi 19 faizini təşkil edir. **Nəzərə alsaq ki,** inkişaf etmiş bəzi ölkələrdə bu göstəricinin səviyyəsi 100-120 faizə bərabərdir və bu göstəricinin 50 faiz təşkil etdiyi ölkələr sabit ölkə kimi tanınır, **onda bu sahədə də ölkəmizin dünya ölkələri arasında ən yaxşı yerlərdən birini tutduğu aydınlaşır.** İndi Azərbaycan bəzi inkişaf göstəricilərinə görə inkişaf etmiş bir çox ölkələri qabaqlayır. Ölkəmizin bu nailiyyətləri Beynəlxalq Təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Dünya Bankının "Doniq Business" hesabatında Azərbaycan biznesi aparmaq üçün yaradılan şəraitə görə dünya miqyasında 25-ci yerə layiq görülmüş və il ərzində 32 pillə irəliləyərək 10 ən islahatçı ölkə sırasında yer almışdır. Ölkə başçımız İlham Əliyev cənablarının dediyi kimi: **"Bu rekord göstəricidir. Biznesi aparmaq üçün yaradılan şəraitə görə dünya miqyasında 25-ci yerdə olmaq böyük nailiyyətdir".** İnklüziv İnkişaf İndeksi göstəricisinə görə də Azərbaycan Respublikası keçid iqtisadiyyatlı ölkələr arasında ən qabaqcıl yerlərdən birini tutur. Təsadüfi deyildir ki, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Davos İqtisadi Forumu Azərbaycanda aparılan islahatlara yüksək qiymət vermişdir. Davos Forumunun **"İnklüziv inkişaf indeksi"** adlı 2017-ci ilə dair ilk hesabatında ölkəmiz inkişaf etməkdə olan 80 ölkə arasında Litva və Macarıstandan sonra 3-cü yeri tutmuşdur. Bu qrupa daxil olan ölkələr arasında Azərbaycan Respublikası Avropa İttifaqının, zəngin ölkələri birləşdirən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, "Böyük iyirmilik" (Q.20) qrupunun üzvləri olan bir çox dövlətlərdən qabaqdadır. **Hazırda ölkəmiz İnsan İnkişafı İndeksi göstəricisinə görə** dünyanın 189 ölkəsi arasında 80-ci yeri tutur. Bütün bunlar təsadüfi olmayıb ölkə Prezidenti



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

İlham Əliyev cənablarının apardığı səmərəli iqtisadi islahatların və düşünülmüş iqtisadi siyasətinin nəticəsində mümkün olmuşdur.

**“Bizim bütün fəaliyyətimizin mərkəzində Azərbaycan vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsi durur”** – deyən Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi son 15 ildən artıq dövr ərzində ölkə iqtisadiyyatında məşğul olan hər bir işçinin orta aylıq nominal əmək haqlarının məbləği 7 dəfə, pensiyaların məbləği 9 dəfə, minimum əmək haqqının məbləği isə 6,5 dəfə artmışdır. İlham Heydər oğlu Əliyevin “11” aprel 2018-ci ildə yenidən 7 il müddətinə prezident seçildikdən sonra ötən bir il ərzində həyata keçirdiyi islahatlar iqtisadiyyatın müxtəlif sahələrini əhatə etsə də, **başlıca hədəf sosial məsələlərin həlli, əhalinin rifahının yaxşılaşdırılmasından ibarət olmuşdur. Bunun əsasında isə ölkə iqtisadiyyatında baş vermiş müsbət irəliləmələr durur. Keçən il respublikamız üçün sözün əsil mənasında uğurlu il olmuşdur. 2018-ci ildə dünya miqyasında və regionda gedən mənfi proseslərə baxmayaraq Azərbaycan Respublikası hərtərəfli və dinamik inkişafa malik olmuşdur.** Belə ki, ötən il respublikamızda ÜDM-un həcmi 1,4 faiz, qeyri-neft sektoru 1,8, sənaye istehsalı 1,5, kənd təsərrüfatı 4,6 faiz, qeyri-neft sənaye məhsulu isə 9,1 faiz artmışdır. **Həyata keçirilmiş uğurlu islahatların** nəticəsidir ki, 2019-cu ilin təkcə birinci ayı ərzində ölkə büdcəsinə plandan əlavə vergi orqanları tərəfindən 80 milyon manatdan çox, gömrük orqanları tərəfindən isə 20 milyon manatdan çox vəsait köçürülmüşdür. Təsadüfi deyildir ki, ölkə vətəndaşlarımızın mütləq əksəriyyəti Prezident İlham Əliyev cənablarının fəaliyyətindən və islahatlar kursunun nəticələrindən tam razıdırlar. Bunu Fransanın məşhur “Opiniol Way” şirkətinin 2019-cu ilin mart ayında Azərbaycanda keçirdiyi rəy sorğusunun nəticələrindən də aydın görmək olar. Prezident İlham Əliyevin fəaliyyətini həmin sorğuda iştirak etmiş respondentlərin 85,1 faizi müsbət qiymətləndirmişdir. Onun fəaliyyətinin ən uğurlu nəticəsi kimi isə rəyi soruşanların 80,1 faizi ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanılmasını dəyərləndirib. Dövlət başçısının islahatlar kursuna sorğuda iştirak etmiş respondentlərin 90,5 faizi müsbət qiymət vermişlər. Bu deyilənlərlə yanaşı sorğuda iştirak edənlərin 89,5 faizi Prezident İlham Əliyevin xarici siyasətinə, 75,6 faizi seçkiqabağı vədlərinin yerinə yetirilməsinə, 78,8 faizi həyata keçirdiyi kadr siyasətinə, 75,6 faizi korrupsiyanın aradan qaldırılması ilə bağlı görülən tədbirlərə, 93,1 faizi regionların sosial-iqtisadi inkişaf proqramlarının icrasına, 90,4 faizi bölgələrə səfərlərinin faydalılıq əmsalına müsbət rəyini bildirmişlər. Bura xüsusi olaraq onu da qeyd etmək lazımdır ki, 2018-ci ilin aprel ayında keçirilmiş prezident seçkilərindən sonra ölkədə aparılmış iqtisadi islahatların həyata keçirilməsi sahəsində çox mühüm addımlar atılmağa başlanmışdır ki, bunlar da ölkə əhalisi tərəfindən rəğbətlə qarşılanmışdır. Ölkə Prezidenti İlham Əliyev cənabları hələ 2019-cu ilin əvvəllərində ölkədə 2 milyon 200 min vətəndaşımızı əhatə edəcək irimiqyaslı sosial müdafiə paketinin tətbiq ediləcəyi barədə açıqlama vermişdir. Onun 2019-cu il 8 fevral tarixli sərəncamı ilə minimum əmək haqqının məbləği 38 faiz artırılaraq 130 manatdan 180 manata, pensiyaların məbləği isə 116 manatdan 160 manata çatdırılmışdır ki, bu da ölkə əhalisinin 600 min nəfərinin rifahının yaxşılaşdırılmasına şərait yaratmışdır. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə şəhid ailələri üçün nəzərdə tutulmuş prezident təqaüdünün məbləği 242 manatdan 300 manata, Əfqanıstan müharibəsində həlak olanların ailələrinə verilən müavinət 220 manatdan 300 manata çatdırılmış, 100 min nəfərədək tələbənin təqaüdü isə əhəmiyyətli dərəcədə artırılmışdır. Şəhid ailələrinin vərəsələrinə də 11 min manatlıq məbləğində birdəfəlik müavinət verilmişdir. Dövlət başçımızın 2019-cu il aprelin 1-dən etibarən **“Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında”** sərəncamı qüvvəyə minmiş və 14 kateqoriya üzrə sosial müavinətlər, 7 kateqoriya üzrə isə prezident təqaüdləri orta hesabla 100 faiz artırılmışdır. Ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

zədəsi və peşə xəstəliyi, Çernobıl qəzasının ləğvi ilə əlaqədar əlilliyi olanlar üçün (əmək pensiyası hüququ olmayan) ayrılan vəsaitin və digər sosial müavinətlərin artan məbləğinə nəzər saldıqda aydın olur ki, 2019-cu ilin aprel ayının 1-dən yaşa görə sosial müavinətlərin məbləği 130 manat, I qrup əlilliyə görə 150 manat, II qrup əlilliyə görə 130 manat, III qrup əlilliyə görə 110 manat, ailə başçısının itirilməsinə görə 80 manat, sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlara 150 manat, valideynlərini itirmiş uşaqların qəyyumlarına 100 manat, müddətli hərbi xidmət qulluqçularının uşaqlarına 100 manat, **beşdən çox uşağı olan qadınlara hər uşaq üçün 55 manat, uşağın anadan olmasına görə 200 manat,** dəfn üçün ödənilən sosial müavinətlər üçün 300 manat, I qrup əlilliyə görə prezident təqaüdü 100, onlara qulluq edənlərə 50 manat, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara prezident təqaüdü isə 50 manat məbləğində müəyyən edilmişdir. Qeyd edilən sərəncamla müharibə əlilləri və onlara bərabər tutulan şəxslər üçün prezident təqaüdünün məbləği I qrup əlilliyə görə 182 manatdan 250 manata, onlara qulluq edənlərə isə 50 manat, II qrup əlilliyə görə 158 manatdan 230 manata, III qrup əlilliyə görə 121 manatdan 210 manata çatdırılmışdır. **Beləliklə,** əgər I qrup müharibə əlilləri və onlara bərabər tutulan şəxslər 150 manat sosial müavinət alırdılarsa, bundan sonra həmin məbləğin üzərinə 250 manat prezident təqaüdü və 50 manat da onlara qulluq edən şəxsin məvacibi daxil ediləcək. Yəni bu kateqoriyaya aid şəxslər ayda ümumilikdə 450 manat alacaqlar. II qrupa aid olanların 360, III qrupa aid olanların isə alacaqları müavinət 320 manat təşkil ediləcəkdir. 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad müharibəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərin (müharibə illəri istisna olmaqla) prezident təqaüdünün məbləği isə 150 manat olaraq müəyyənləşdirilmişdir. **2016-cı ilin aprel döyüşlərində əlil olanların təqaüdləri isə 100 faiz artırılmışdır.** *("5" aprel 2019. www.azerbaijan.news.az).*

Ötən il ölkə Prezidenti AMEA-nın həqiqi və müxbir üzvlərinin, elmi müəssisə və təşkilatlarda çalışan işçilərin, tələbə və doktorantların stimullaşdırılması ilə bağlı bir sıra sərəncamlar imzalanmışdır. **Bütün bunlar ölkəmizdə həyata keçirilən və davamlı xarakter daşıyan sosial yönümlü siyasətin bariz nümunəsidir.** Elə həmin siyasətin nəticəsidir ki, **indi Azərbaycanda bütün başqa sahələrdə olduğu kimi demoqrafik inkişaf sahəsində də vəziyyət yaxşıdır, müsbətdir.** Başqa sahələrdə olduğu kimi ölkə əhalisinin artımı sahəsində baş verən dəyişikliklər də Prezident İlham Əliyev cənablarının daim diqqət mərkəzindədir. O, hələ 2011-ci ilin "14" yanvarında Nazirlər Kabinetində keçirilmiş iclasdakı yekun nitqində demişdir ki: "Keçən il ölkəmizin həyatında əlamətdar hadisə baş vermişdir. 9 milyonuncu vətəndaş dünyaya gəlmişdir. Bu, çox sevindirici haldır, bizim əhalimizin sayı artır... Mən çox istərdim ki, Azərbaycan əhalisi daha da artsın və əminəm ki, ölkədə gedən proseslər bu məqsədə çatmaq üçün şərait yaradacaqdır. Bir il sonra, yəni 2012-ci ilin 11 iyununda Nazirlər Kabinetində birinci keçirilmiş iclasdakı giriş nitqində prezident İlham Əliyev yenidən bu məsələdən bəhs edərək demişdir ki: "Azərbaycandakı demoqrafik vəziyyət yaxşıdır, müsbətdir, təbii artım vardır. Ancaq hesab edirəm ki, bu artım daha da güclü olmalıdır. Bu artımı stimullaşdırmaq və əhalinin artımını təmin etmək üçün yəqin ki, əlavə tədbirlər görülməlidir". **Nəticə göz önündədir.** "6" aprel 2019-cu il tarixdə ölkəmizin 10 milyonuncu sakini dünyaya gəlmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları və Birinci vitse-prezident xanım Mehriban Əliyeva bu tarixi hadisə münasibətilə "9" aprel 2019-cu il tarixdə Respublika Perinatal Mərkəzinə gələrək Azərbaycanın 10 milyonuncu sakini Mehriban Həsənovanın valideynləri Rauf Həsənov və Nigar Ocaqova ilə görüşmüş və onları təbrik etmişlər. (Qeyd: Yenicə dünyaya göz açmış qız uşağının valideynləri Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın şərəfinə həmin qıza Mehriban adı vermişlər). Prezident

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

İlham Əliyev bu görüşdə üzünü həmin körpənin valideynlərinə tutaraq demişdir: "Bilirəm. Biz bu hadisəni izləyirdik. Aprelin 6-da sizin həyatınızda, eyni zamanda, ölkəmizin həyatında çox əlamətdar hadisə baş vermişdir. Sizin körpəniz ölkəmizin 10 milyonuncu sakinidir. Sizi təbrik edirəm, sağlam böyüsün, sizi sevindirsin, xalqımızı sevindirsin. Bu, tarixi hadisədir. Bu gözəl hadisə münasibətilə Azərbaycan xalqını təbrik edirəm. Əhalimiz artır. Yadımdadır, 9 milyonuncu sakin 2010-cu ildə dünyaya gəldi. Doqquz il ərzində əhalimiz 1 milyon artdı. Amma son 15 il ərzində əhali 1,7 milyon nəfər artdı. Bu, bizim gücümüzü, ölkəmizin qüdrətini artırır. Eyni zamanda onu göstərir ki, ölkəmizdə sosial-iqtisadi inkişaf gedir. Çünki əhalinin artımı birbaşa sosial vəziyyətlə bağlıdır... bu hadisəni bütün xalqımız bayram edir". *("19" aprel 2019. www.azerbaijan-news.az).*

Burada onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası əhalisinin sayı son 50 il ərzində (1969-2019-cu illər) 4990,5 min nəfər və ya təqribən iki dəfə artaraq 5009,5 min nəfərdən 10 milyon nəfərə, o cümlədən müstəqillik illərinədən əvvəlki 22 il ərzində (1969-1991-ci illər) 2209 min nəfər və ya 44,1 faiz artaraq 7218,5 min nəfərə, 1993-2003-cü illəri əhatə edən 10 il ərzində 829,2 min nəfər və ya 11,1 faiz artaraq 7440 min nəfərdən 8269,2 min nəfərə, 2003-2019-cu illəri əhatə edən 16 il ərzində isə 1730,1 min nəfər və ya 20,9 faiz artaraq 8269,2 min nəfərdən 10,0 milyon nəfərə gəlib çatmışdır. *(Azərbaycanın demoqrafik göstəriciləri. Bakı, 2018. səh. 40-41)*

Hazırda Azərbaycan Respublikası əhalisinin sayına görə dünya əhalisinin (7,6 milyard nəfər) cəmi 0,13 faizini təşkil edərək 247 ölkə arasında 88-ci yerdə, Avropa Birliyi ölkələri arasında (28 ölkə) 14-cü yeri, MDB ölkələri arasında (12 ölkə) isə Rusiya Federasiyası (146,8 milyon nəfər); Ukraniya (42 milyon nəfər), Özbəkistan (32,4 milyon nəfər) və Qazaxıstan (18,4 milyon nəfər) Respublikalarından sonra 5-ci yerdə qərarlaşmışdır. İndi Azərbaycan Respublikasının əhalisinin sayı üst-üstə götürüldükdə Ermənistan (2,98 milyon nəfər) və Gürcüstan (3,72 milyon nəfər) Respublikalarının əhalisinin sayından 3,3 milyon nəfər və ya təqribən 1,5 dəfə (49,3 faiz), Baltikyanı ölkələrin əhalisinin sayından isə (Litva – 2,8 milyon nəfər, Latviya – 1,9 milyon nəfər və Estoniya – 1,3 milyon nəfər) 4 milyon nəfər və ya təqribən 1,7 dəfə (66,7 faiz) çoxdur. **Ümumiyyətlə götürüldükdə isə son 12 il ərzində (2005-2017-ci illərdə) dünyada,** Avropa Birliyi və MDB ölkələrində əhalinin sayında və demoqrafik proseslərdə (əhalinin hər 1000 nəfərinə düşən doğum, ölüm və təbii artım) baş vermiş dəyişikliklərə nəzər saldıqda aydın olur ki, həmin ölkələrlə müqayisədə **Azərbaycan Respublikasında demoqrafik vəziyyət və əhalinin artım surəti daha müsbət və sabit xarakter daşıyır.** Belə ki, əgər müqayisə edilən dövrdə (2005-2017-ci illər) dünya əhalisinin sayı 17,2 faiz və ya hər il orta hesabla 1,4 faiz artaraq 6,4 milyard nəfərdən 7,5 milyard nəfərə, Avropa Birliyi ölkələrində cəmi 3,4 faiz və ya hər il orta hesabla 0,28 faiz artaraq 494,7 milyon nəfərdən 511,5 milyon nəfərə, MDB ölkələrində isə 3,3 faiz və ya hər il orta hesabla 0,27 faiz artaraq 275 milyon nəfərdən 284 milyon nəfərə gəlib çatmamışdırsa, **Azərbaycan Respublikasında əhalinin sayı 17,9 faiz və ya orta hesabla hər il təqribən 1,5 faiz artaraq 8,4 milyon nəfərdən 9,9 milyon nəfərə gəlib çatmışdır.** (*Azərbaycanın əhalisi. Statistik məcmuə. 2015, səh. 487; http://www/cisstat/com/rus/cis2017htm).* **Başqa sözlə desək, müqayisə edilən dövrdə ölkəmizin əhalisinin artım sürəti dünya miqyasında olduğundan 0,2 faiz, Avropa Birliyi ölkələrindəkindən 14,5 faiz, MDB ölkələrindəkindən isə 14,6 faiz yüksək olmuşdur. Bunu həmin ölkələrdəki demoqrafik proseslərdə baş vermiş dəyişikliklərin vəziyyəti də təsdiq edir.** Belə ki, əgər müqayisə edilən dövrdə (2005-2017-ci illərdə) dünya miqyasında əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayı 4,8 faiz azalaraq 21 nəfərdən 20 nəfərə, ölənlərin sayı isə 11,1 faiz azalaraq 9 nəfərdən 8 nəfərə düşmüş və əhalinin təbii artımı isə 12 nəfər təşkil edərək sabit qalmışdırsa, Avropa Birliyi ölkələrində əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayının 2,8 faiz azalması, ölənlərin



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sayının isə 3,1 faiz artmasına rəğmən təbii artımı azalaraq 0,6 nəfərdən sıfıra düşməsinə, MDB məkanına daxil olan ölkələrdə isə müvafiq surətdə doğulanların sayının 25 faiz artaraq 12 nəfərdən 15 nəfərə, ölənlərin sayının isə 15 faiz azalaraq 13 nəfərdən 11 nəfərə düşməsi təbii artımın mənfi 1 nəfərdən 4 nəfərə qalxmasına səbəb olmuşdur. **Müqayisə edilən ölkələrdən fərqli olaraq Azərbaycan Respublikasında qeyd edilən** dövrdə əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayı 12,4 faiz azalaraq 16,9 nəfərdən 14,8 nəfərə, ölənlərin sayının isə 4,8 faiz azalaraq 6,2 nəfərdən 5,9 nəfərə düşməsi nəticəsində təbii artımın səviyyəsi 16,8 faiz azalaraq 10,7 nəfərdən 8,9 nəfərə düşmüşdür *(http://www/cisstat/com/rus/cis2017htm).*

Bu göstəricilərdən aydın olur ki, 2017-ci ildə ölkəmizdə əhalinin hər 1000 nəfərinə düşən təbii artımın sayı dünya miqyasındakına nisbətən 3,1 nəfər (25,3 faiz) az olmasına baxmayaraq Avropa Birliyi ölkələrində olduğundan 4,9 nəfər (4,9 dəfə), MDB ölkələrində olduğundan isə 8,9 nəfər (8,9 dəfə) çox olmuşdur.

Doğrudur, bu göstəricilərdən aydın olur ki, hazırda ölkəmizdə əhalinin hər 1000 nəfərinə düşən təbii artımın səviyyəsi Avropa Birliyi və MDB məkanına daxil olan ölkələrə nisbətən xeyli yüksəkdir. **Əlbəttə,** bununla arxayınlaşmaq olmaz. Onu da nəzərə almaq lazımdır ki, 2005-2011-ci illərdə ölkəmizdə əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayı təqribən 14,8 faiz artaraq 16,9 nəfərdən 19,4 nəfərə qalxmasına və ölənlərin sayının 3,7 faiz azalaraq 6,2 nəfərə düşməsinə, təbii artım səviyyəsinin isə 16,8 faizdən çox artaraq 10,7 nəfərdən 12,5 nəfərinə qalxmasına baxmayaraq 2011-2017-ci ildə müvafiq surətdə doğulanların sayı 23,7 faiz azalaraq 19,4 nəfərdən 14,8 nəfərə düşmüş, ölənlərin sayı isə dəyişməz qalaraq 5,9 nəfər təşkil etmiş və nəticədə təbii artımın səviyyəsi təqribən 34 faiz azalaraq 13,5 nəfərdən 8,9 nəfərə düşmüşdür. Burada onu da əlavə etsək ki, müqayisə edilən dövrdə (2011-2017-ci illər) ölkəmizdə nikahların sayı 28,6 faiz azalaraq 88,1 mindən 62,9 minə düşmüş, boşanmaların sayı isə 40,2 faiz artaraq 10,7 mindən 14,5 minə qalxmışdır, onda vəziyyətin necə dəyişə biləcəyini təsəvvür etmək o qədər də çətin olmaz *(Azərbaycanın demoqrafik göstəriciləri. Bakı, 2018. səh. 330).* Ona görə də indidən dövlət səviyyəsində lazımı kompleks demoqrafik siyasət tədbirləri sistemi işlənib hazırlanıb həyata keçirilməsə gələcəkdə bu sahədə müəyyən çətinliklər meydana çıxa bilər. Təsadüfi deyildir ki, ölkə başçımız İlham Əliyev cənabları dəfələrlə qeyd etmişdir ki: "Azərbaycanda demoqrafik vəziyyət yaxşıdır, müsbətdir, təbii artım vardır. Ancaq hesab edirəm ki, bu artım daha da güclü olmalıdır. Bu artımı stimullaşdırmaq və əhalinin artımını təmin etmək üçün yəqin ki, əlavə tədbirlər görülməlidir... bizim iqtisadiyyatımız, sənaye gücümüz və siyasi iradəmiz diktə edir ki, Azərbaycan əhalisi daha da artmalıdır. Ona görə biz bu məsələ ilə bağlı ciddi məşğul olmalıyıq... Hesab edirəm ki, bizim alimlərimiz demoqrafik vəziyyətlə bağlı daha da fəal işləməlidirlər". Əlbəttə, bu təsadüfi deyilməmişdir. Bu, dövlət başçımız tərəfindən həmin problemlə məşğul olan biz alimlərə edilmiş çağırışdır və bizim qarşımızda qoyulmuş dövlət əhəmiyyətli vəzifədir. Buna görə də hazırda demoqrafik inkişaf sahəsində mövcud olan problemlər demoqrafiya sahəsində çalışan alimlərimiz başqa müvafiq elm sahələrində çalışan mütəxəssislərin birgə səyi və iştirakları ilə dərindən araşdırılıb öyrənilməli və müvafiq dövlət hökumət orqanlarına bu sahədə vəziyyətin daha da yaxşılaşdırılmasına dair elmi surətdə əsaslandırılmış təklif və tövsiyələr hazırlanıb təqdim etməlidirlər. Çünki, əhali mücərrəd anlayış olsa da onda baş verən dəyişikliklər demoqrafik proseslərdə əks olunur. Demoqrafik proseslər isə cəmiyyət həyatının bir çox tərəfləri ilə qarşılıqlı surətdə bağlıdır. Bu əlaqə sosial-iqtisadi hadisələrin demoqrafik proseslərə və öz növbəsində demoqrafik proseslərin də sosial-iqtisadi hadisələrə təsirini təzahür edir. Buna görə də bütünlükdə cəmiyyətin, hər bir ölkənin və onun ayrı-ayrı ərazilərinin **gələcək inkişaf konsepsiyasını demoqrafik inkişaf konsepsiyasız təsəvvür etmək qeyri-mümkündür.** Belə ki, ölkənin gələcək iqtisadi və



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sosial inkişaf strategiyasının müəyyənləşdirilməsi və bu sahədə düzgün sosial-iqtisadi siyasət tədbirləri işlənib hazırlanması, ilk növbədə burada yaşayan əhalinin və müxtəlif sosial-demoqrafik qruplardan olan insanların gözlənən dəyişikliklərə nə dərəcədə, hazır olub-olmaması imkanlarının ölçülüb biçilməsinə əsaslanmalı, bu zaman onların malik olduğu dəyərlər, mənafe, ənənə və istəkləri diqqətlə nəzərə alınmalı və mövcud insan potensialının kəmiyyət-keyfiyyət vəziyyəti obyektiv surətdə qiymətləndirilməlidir. Çünki elmi-texniki tərəqqinin sürəti, əməyin təşkili və mədəniyyəti, onun məhsuldarlığı, hər şeydən əvvəl insan potensialının keyfiyyətindən asılıdır. Hazırda inkişaf etmiş ölkələrdə iqtisadi artıma, onun sürəti, quruluşu və keyfiyyətinə məqsəd kimi deyil, insanların həyatının zənginləşdirilməsi, yaşayış səviyyəsi və keyfiyyətinin yaxşılaşdırılması və insan potensialının müntəzəm surətdə inkişafı üçün zəruri olan vasitə kimi baxılır. Bu səbəbdəndir ki, indi dünyada başqa istiqamətlərə nisbətən insan potensialına qoyulan vəsait daha səmərəli hesab olunur. Təsadüfi deyil ki, Ulu öndərimiz Heydər Əliyev 28 dekabr 1998-ci il tarixli sərəncamı ilə bu sətirlərin müəllifinin elmi rəhbərliyi və bilavasitə iştirakı ilə ilk dəfə olaraq “Azərbaycanın Demoqrafik İnkişaf Konsepsiyası” hazırlanmış və onun “9” dekabr 1999-cu il tarixli sərəncamı ilə təsdiq edilərək həmin ayın 16-da ölkə mətbuatında dərc edilmişdir. Elmi surətdə əsaslandırılmış bu konsepsiyada ilk dəfə olaraq Azərbaycan Respublikasında demoqrafiya sahəsində dövlət siyasətinin əsas məqsədi, vəzifələri, prinsipləri, milli prioritetləri və həyata keçirilməsi mexanizmləri öz əksini tapmışdır. Həmin konsepsiyada göstərildiyi kimi, demoqrafiya sahəsində dövlət siyasətinin əsas məqsədi demoqrafik proseslərdə yaranmış neqativ meylləri aradan qaldırmaqla ölkənin uzunmüddətli inkişaf strategiyasına uyğun gələn əhalinin kəmiyyət-keyfiyyət artımını təmin etməkdən, əsas vəzifəsi isə əhalinin kəmiyyət-keyfiyyətinin normal təkrar istehsalı üçün zəruri olan doğum səviyyəsini təmin edə biləcək hərtərəfli şərait yaradılması, ölüm səviyyəsinin azaldılması, əhalinin sağlamlığının və həyatının yaxşılaşdırılması hesabına ömür müddətinin uzadılması, nikah və boşanma proseslərinin bütünlükdə cəmiyyətin və ayrılıqda hər bir ailənin mənafeyinə uyğun tərzdə nizamlanması, ictimai tərəqqinin həm yaxın, həm də uzaq gələcəyə perspektivləri nəzərə alınmaqla miqrasiya proseslərinin tənzimlənməsi, respublikanın sosial-iqtisadi, siyasi və demoqrafik mənafelərini rəhbər tutaraq ölkə ərazisində, o cümlədən sərhəd rayonlarında və işğaldan azad edilmiş ərazilərdə əhalinin məskunlaşdırılmasının yaxşılaşdırılması və demoqrafik potensialının artırılması üçün şəraitin yaxşılaşdırılması, ailə institutunun mənəvi-əxlaqi dəyərlərinin təbliği və müdafiəsi, sağlam həyat tərzinin formalaşdırılmasının normalara uyğun tənzimlənməsindən ibarətdir. Ulu öndərimiz Heydər Əliyevin 23 iyun 2003-cü il tarixli sərəncamı ilə “Azərbaycan Respublikasında demoqrafiya və əhalisakinliyinin inkişafı sahəsində Dövlət Proqramının hazırlanması üzrə Dövlət Komissiyasının tərkibi” təsdiq edilmişdir. Bu sətirlərin müəllifinin də üzvü olduğu həmin komissiyanın üzvləri ölkəmizin müvafiq nazirliklərinin və elmi müəssisələrinin mütəxəssislərinin iştirakı və bizim elmi rəhbərliyimizlə “Azərbaycan Respublikasında demoqrafiya və əhalisakinliyinin inkişafı sahəsində Dövlət Proqramı (2004-2008-ci illər) işlənib hazırlanmış və ölkə prezidenti İlham Əliyevin 11 noyabr 2004-cü il” tarixli sərəncamı ilə təsdiq edilərək həyata keçirilmişdir. Respublika prezidenti İlham Əliyev cənablarının rəhbərliyi ilə həmin Dövlət Proqramında nəzərdə tutulmuş demoqrafik siyasət tədbirlərinin yerinə yetirilməsi və sosial-iqtisadi sahədə həyata keçirilmiş islahatlar, əldə olunmuş davamlı makroiqtisadi və siyasi sabitlik, əhalinin yoxsulluq və işsizlik səviyyəsinin azaldılması, əhalinin həyat səviyyəsi və onun keyfiyyətinin yüksəldilməsi və sair nəticəsində bütün sahələrdə olduğu kimi demoqrafik inkişaf sahəsində də müsbət dəyişikliklər baş vermiş və 2003-cü ilə nisbətən burada əhalinin sayı 1730,8 min nəfər və ya 21 faiz (orta hesabla hər il 108,2 min nəfər və ya 1,31 faiz artaraq) artaraq “06” aprel 2019-cu il tarixdə 10 milyon nəfərə gəlib çatmışdır. Bu dövrdə ölkənin demoqrafik



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

vəziyyətində baş vermiş ən müsbət dəyişikliklərdən biri də ondan ibarətdir ki, 1990-cı ildən ötən 18 il ərzində, ilk dəfə olaraq 2008-ci ildən başlayaraq daimi yaşamaq üçün ölkəmizə gələnlərin sayı daimi yaşamaq üçün ölkəmizdən gedənlərin sayını üstələmiş və respublikamızda əhalinin miqrasiya qalığı (saldosu) müsbət xarakter almağa başlamışdır. Belə ki, əgər 1990-cı ildə daimi yaşamaq üçün ölkəmizə gələnlərin sayı 84,3 min nəfər, daimi yaşamaq üçün buradan gedənlərin sayı 137,9 min nəfər təşkil etmiş və əhalinin miqrasiya qalığı (saldosu) mənfi 53,6 min nəfər, 2003-cü ildə isə müvafiq surətdə 2,5 və 3,8 min nəfər və mənfi 1,3 min nəfər təşkil etmişdirsə 2008-ci ildə daimi yaşamaq üçün ölkəmizə gələnlərin sayı 3,6 min nəfər, ölkədən daimi yaşamaq üçün gedənlərin sayı isə 2,5 min nəfər təşkil etmiş və ya miqrasiya qalığı (saldosu) müsbət 1,1 min nəfər olmuşdur. Bütünlükdə götürüldükdə isə 2008-ci ildən 2017-ci ilədək 10 il ərzində ölkəmizə daimi yaşamaq üçün gələnlərin sayı 265 min nəfər, ölkədən daimi yaşamaq üçün gedənlərin sayı isə 122 min təşkil etmişdir. Başqa sözlə desək, qeyd edilən dövrdə ölkəmizə daimi yaşamaq üçün gələnlərin sayı ölkədən daimi yaşamaq üçün gedənlərin sayından 2,2 dəfə çox olmuş və ya miqrasiya artımı müsbət 143 min nəfər təşkil etmişdir *(Azərbaycanın demoqrafik göstəriciləri. Statistik məcmuə. Bakı, 2008. səh. 455).* Əlbəttə, bütün bunlar hər şeydən əvvəl ölkəmizin sosial-iqtisadi inkişafında baş vermiş müsbət dəyişikliklər və burada yaradılmış ictimai-siyasi sabitliklə bağlıdır. Təkcə bunları demək kifayətdir ki, 2005-2017-ci illərdə ölkənin əsas iqtisadi və rifah göstəricisi sayılan Ümumi Daxili Məhsulun (ÜDM) həcmi 5,6 dəfə artaraq 12,5 milyard manatdan 70,1 milyard manata, onun əhalisinin hər nəfərinə düşən məbləği isə 4,8 dəfədən çox artaraq 1494,3 manatdan 7205 manata gəlib çatmış, dövlət büdcəsindən təhsilin inkişafına ayrılan vəsaitlərin məbləği təqribən 4,7 dəfə artaraq 372,5 milyon manatdan 1742,8 milyon manata, səhiyyənin inkişafına ayrılan vəsaitlərin məbləği 6,1 dəfə artaraq 115,3 milyon manatdan 704,7 milyon manata, əhalinin hər nəfərinə düşən gəlirlərin məbləği isə 5,2 dəfədən çox artaraq 962,2 manatdan 5050 manata qalxmışdır *(Azərbaycanın statistik göstəriciləri. 2008. səh. 18-19, 402).* Dünyanın hər yerində olduğu kimi Azərbaycanda da demoqrafik vəziyyətə təsir edən amillər arasında əhalinin, xüsusilə qadınların məşğulluq və təhsil səviyyəsi mühüm yer tutur. Rəsmi statistik məlumatlara əsasən son 15 il ərzində (2003-2017-ci illər) respublika iqtisadiyyatında məşğul olan əmək qabiliyyətli yaşında iqtisadi fəal qadınların sayı 29,8 faiz artaraq 1787,3 min nəfərdən 2319,3 min nəfərə qalxmış, işsiz qadınların sayı 25,3 faiz azalaraq 194,7 min nəfərdən 145,5 min nəfərə, onların işsizlik səviyyəsi isə 1,8 dəfədən çox azalaraq 10,9 faizdən 5,9 faizə düşmüşdür. Hal-hazırda ölkə iqtisadiyyatında muzdla işləyənlərin 41,1, informasiya və rabitə - 30,8, maliyyə və sığorta fəaliyyətində - 33,9, peşə, elmi və texniki fəaliyyətdə 45,1, dövlət idarəetməsi və müdafiə; sosial təminatda 27,6, təhsil sahəsində 73,8, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində 76,5, istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyətdə 63,1 faizi və sair qadınların payına düşür. *(Əmək bazarı. Statistik məcmuə. Bakı, 2010. səh. 21. Bakı, 2018. səh. 22, 32).* Qadınların təhsil vəziyyətində baş vermiş dəyişikliklərə gəldikdə isə bunu ondan görmək olar ki, Respublikamız öz müstəqilliyini bərpa etdikdən sonra 1999 və 2009-cu illərdə azad surətdə ölkəmizdə keçirilmiş əhalinin ümumi siyahıyaalınması məlumatlarına əsasən qeyd edilən dövrdə burada yaşı 10 və yuxarı olan əhalinin hər 1000 nəfərinə düşən təhsili olanların sayı 7 faiz artaraq 795 nəfərdən 851 nəfərə, o cümlədən qadınların sayı 6,8 faiz artaraq 807 nəfərdən 862 nəfərə, ali və natamam ali təhsili olanların sayı 34,6 faiz artaraq 78 nəfərdən 105 nəfərə, qadınlar arasında isə 40,6 faiz artaraq 91 nəfərdən 121 nəfərə qalxmışdır. Bu göstərici müvafiq surətdə ölkədə ümumi orta təhsili olanlar üzrə 29,4 faiz artaraq 335 nəfərdən 435 nəfərə, o cümlədən qadınlar üzrə 22,2 faiz artaraq 369 nəfərdən 451 nəfərə çatmışdır. 2017-ci ildə respublikamızda yaşayan 2464,8 min nəfər iqtisadi fəal qadınların 13,6 faizini ali, 13,7 faizini orta ixtisas, 3,6 faizini ilk peşə-ixtisas, 59,7 faizini tam orta, 8,2 faizini ümumi orta, 1,5 faizini ibtidai təhsili



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

olanlar, iqtisadiyyatda məşğul olmuş 2319,3 min nəfər qadının isə 16,5 faizini ali, 10,7 faizini orta ixtisas, 5,4 faizini ilk peşə-ixtisas, 60 faizini tam orta, 6,4 faizini ümumi orta, cəmi 1 faizini isə ibtidai təhsili olanlar təşkil etmişdir *(Əmək bazarı. Statistik məcmuə. Bakı, 2018. səh. 122 və 125).* 2000-2018-ci illəri əhatə edən dövrdə respublikamızda orta ixtisas təhsil müəssisələrində oxuyan qızların sayı 4 faiz artaraq 29,7 min nəfərdən 30,9 min nəfərə, ali təhsil müəssisələrində isə 1,6 dəfədən çox (62,2 faiz) artaraq 49,8 min nəfərdən 80,8 min nəfərə gəlib çatmışdır. Rəsmi statistikanın məlumatlarına əsasən 2017-2018-ci tədris ilində respublikanın dövlət və qeyri-dövlət ümumi təhsil müəssisələrində təhsil alan 1520,2 min şagirddən 700,6 min nəfərini və ya 46,1 faizini, orta ixtisas təhsili müəssisələrində oxuyan 47,4 min tələbənin 30,9 min nəfərini və ya 65,2 faizini, ali təhsil müəssisələrində oxuya 167,7 min tələbənin isə 80,8 min nəfərini və ya 48,2 faizini qızlar təşkil etmişlər *(Azərbaycanda təhsil, elm və mədəniyyət. Statistik məcmuə. Bakı, 2018. s. 75, 129, 132, 152, 155).*

Bütün bunlar ölkədə baş verən demoqrafik dəyişikliklərə təsirsiz qalmamış və son illərdə burada həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin nəticələri kimi qiymətləndirilməlidir. Bu il oktyabr ayının 1-10-da isə ölkəmizdə əhalinin növbəti siyahıyaalınmasının keçirilməsi nəzərdə tutulmuş və bununla bağlı Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənabları “7” sentyabr 2016-cı il tarixdə fərman imzalanmışdır. Azərbaycan Respublikasının Nazirlər Kabineti isə həmin fərmandan irəli gələn vəzifələri rəhbər tutaraq öz növbəsində “16” dekabr 2016-cı il tarixdə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı haqqında qərar vermişdir. 2019-cu ilin oktyabr ayında keçirilməsi nəzərdə tutulmuş respublika əhalisinin siyahıyaalınması müstəqillik dövründə azad surətdə keçiriləcək sayca əhalinin 3-cü siyahıyaalınması olacaqdır. Dövlət başçısının fərmanına uyğun olaraq əhalinin siyahıyaalınması ilə bağlı olan hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunlarının işlənməsi və nəticələrinin dərc edilməsi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə həvalə edilmişdir. Bu il keçiriləcək əhalinin siyahıyaalınması milli səviyyədə demoqrafik və sosial-iqtisadi inkişafa dair proqnozların işlənib hazırlanması ilə yanaşı, həm də beynəlxalq tövsiyələr və milli prioritetlər əsasında respublikamızda əhalinin 2009-cu ildə keçirilmiş son siyahıyaalınmasından keçən dövrdə əhalimiz haqqında dəqiq və müfəssəl məlumatların əldə edilməsinə imkan verəcək və ölkəmizdə həyata keçirilməsi nəzərdə tutulmuş Dövlət Proqramlarından və “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasından irəli gələn hədəflərin qiymətləndirilməsində mühüm rol oynayacaqdır. Burada onu da qeyd etmək lazımdır ki, ölkədə həyata keçirilən sosial-iqtisadi tədbirlər demoqrafik proseslərin inkişafına birdən-birə deyil, uzun bir tarixi dövr ərzində və hər bir ailədə doğulan uşaqların sayına, onların doğulma müddətlərinə verilən üstünlük, şəxsi və ictimai sağlamlıq dəyərlərinin dərk edilməsi, ailələrin möhkəmliyi və yeni yaşayış yerlərinin seçilməsi və sair bu kimi problemlərlə bağlı olan münasibətlərin dəyişilməsi vasitəsi təsir göstərir. Buna görə də demoqrafik proseslərin nizama salınması məsələlərinin həlinə təkcə müasir tələblər baxımından deyil, həm də gələcəkdə bu inkişafın tələb və məqsədləri və bütünlükdə sosial-iqtisadi hadisələr sistemində baxılmasını tələb edir. **Buna görə də Ulu öndər Heydər Əliyevin “9” dekabr 1999-cu il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının İnkişaf Konsepsiyası”-nın** müddəaları əsas götürülməklə və 2019-cu ildə keçiriləcək əhalinin siyahıyaalınmasının nəticələri nəzərə alınmaqla Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində yeni, növbəti Dövlət Proqramının hazırlanmasına ehtiyac vardır. Belə bir Dövlət Proqramının mövcud olması ölkəmizdə demoqrafik proseslərdə və əhalinin kəmiyyət-keyfiyyət göstəricilərində baş verən dəyişikliklərin və onlara təsir edən kompleks amillərin aşkara çıxarılıb düzgün qiymətləndirilməsinə və bu əsasda səmərəli demoqrafik siyasət tədbirlərinin işlənib



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

hazırlanmasına imkan verər. Bu tədbirlərin həyata keçirilməsi isə öz ölkəmizdə əhalinin normal təkrar istehsal proseslərinin təmin edilməsinə, əhalinin təbii və mexaniki hərəkətinin ahəngdar gedişinə və demoqrafik vəziyyətin daha da yaxşılaşdırılmasına səbəb olmaqla xalqımızın həyat səviyyəsi və onun keyfiyyətinin daha da yüksəlməsinə, ölkəmizin iqtisadi və hərbi qüdrətinin daha da artmasına səbəb olacaqdır.

Ulu öndər Heydər Əliyevin iqtisadi inkişaf strategiyası onun layiqli davamçıları Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənabları və Azərbaycanın Birinci vitse-prezidenti, xanım Mehriban Əliyeva tərəfindən uğurla və yaradıcılıqla davam etdirilir. Onların həyata keçirdikləri uğurlu iqtisadi islahatlar, bütün sahələrdə şəffaflığın təmin edilməsi büdcə gəlirlərinin, maliyyə imkanlarının artırılmasına şərait yaratmaqla, ilk növbədə bu vəsaitlərin sosial sferaya yönəldilməsini təmin etmişdir. Makroiqtisadi sabitliyin qorunub saxlanılması, rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların istehsal edilməsinə əsaslanan iqtisadiyyatın yaradılması, əldə edilmiş nailiyyətlərin ölkə vətəndaşlarının həyat səviyyəsi və onun keyfiyyətinin daha da yaxşılaşdırılmasına yönəldilməsi ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin əsas prioritetlərini təşkil edir. Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş və başlıca məqsədi uzunmüddətli dövrdə davamlı və müasir tələblərə cavab verən sosial-iqtisadi inkişafın təmin edilməsi ilə yüksək sosial rifaha çatmaqdan ibarət olan **"Azərbaycan 2020: gələcəyə baxış"** İnkişaf Konsepsiyası, məqsədyönlü dövlət proqramları, strateji yol xəritələri, qəbul edilmiş müxtəlif strategiyalar, konkret tədbirlərə dair planlar, əhatəli və davamlı iqtisadi islahatlar ölkəmizdə innovativ iqtisadiyyatın formalaşması, ixracın diversifikasiyası, idxaldan asılılığın azaldılması, biznes mühitinin əlverişliliyinin daha da artırılması, investisiyaların cəlb edilməsi və digər istiqamətlərdə mühüm işlərin həyata keçirilməsinə şərait yaradır. Ölkə başçısı İlham Əliyev cənablarının Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikində deyildiyi kimi: "Bizim iqtisadi gücümüz artdıqca sosial məsələlər daha da geniş miqyasda öz həllini tapacaqdır. İqtisadi artım isə göz qabağındadır... İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar – artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır – təhsil, səhiyyə sahələrində, hər bir sahədə Azərbaycan yeni dövrə qədəm qoyub. Azərbaycan yeniləşir, Azərbaycan gücənir və müasirləşir. Biz dərin milli-mənəvi köklər üzərində güclü dövlət qurmuşuq. Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Ancaq o demək deyil ki, əldə edilmiş bu nailiyyətlərlə kifayətlənməliyik. Əldə edilmiş nailiyyətlər bizi qələbəyə daha da nikbinliklə baxmağa həvəsləndirir, buna şövq edir" *(www.azerbaijan-news.az).*

**Dahi rəhbərimiz Heydər Əliyevin iqtisadi inkişaf strategiyasının həyata keçirilməsində,** respublikamızda aparılan yaradıcılıq tədbirlərinin və sosial islahatların reallaşmasında, ölkə vətəndaşlarının həyat səviyyəsinin və onun keyfiyyətinin yüksəldilməsində Heydər Əliyev fondunun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın xidmətləri danılmazdır. Səlahiyyətlərinə başladığı ilk gündən xanım Mehriban Əliyeva cəmiyyətin həssas təbəqələrinin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşmış və onların həlli üçün əlindən gələni əsirgəməmişdir. Azərbaycan xalqının əfsanəvi qızı, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyeva cəmiyyəti narahat edən problemlərin həllində xüsusi əzmkarlıq göstərən, bir çox yeni, humanist və xeyirxah təşəbbüslərin müəllifi və icraçısı kimi çıxış edən dövlət xadimi kimi nəinki ölkəmizdə, həm də beynəlxalq aləmdə böyük nüfuz qazanmış, bir sıra ölkələrin ən yüksək mükafatlarına layiq görülmüşdür. Xanım Mehriban Əliyeva ölkəmizin adını bütün dünyada yüksəklərə qaldırmış, millətimizin başını və Azərbaycan qadınının ləyaqət və şərəfini hər yerdə ucaltmış, vətənimiz Azərbaycana çoxlu dostlar qazandırmışdır. Xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi və bu il yaranmasının 15 illik yubileyi ölkəmizdə

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

təntənəli surətdə qeyd edilən Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi 15 il ərzində cəmiyyətdə cahanşümül əhəmiyyəti olan bir qurum kimi özünü tarixin səhifələrinə yazdırmağı bacarmış, on minlərlə insanın ümid, pənah yerinə çevrilmiş və ölkəmizdə həyata keçirilmiş neçə-neçə mühüm layihələrin reallaşdırılmasına əvəzsiz töhfələr vermişdir. **Təsadüfi deyildir ki,** onun fəaliyyətini yüksək qiymətləndirən Rusiya Dövlət Dumasının Beynəlxalq Məsələlər Komitəsinin sədri, deputat Leonid Slutski Heydər Əliyev Fondunun 15 illik yubileyi münasibətilə jurnalistlərə verdiyi müsahibəsində demişdir ki: "Heydər Əliyev Fondu tarix, fəlsəfə, ədəbiyyat, incəsənət sahələrində humanitar layihələr həyata keçirən iri dünya fondları sırasına daxil olub. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti və layihələrinin əvəzolunmaz ilhamvericisi Mehriban xanım Əliyevanın qarşısında baş əyirəm. Onun adı bu gün respublikada yoxsulluğun aradan qaldırılması, enerji cəhətdən müstəqilliyinin təmin olunması fondun Ümummilli lider Heydər Əliyevin, Prezident İlham Əliyevin adları ilə yanaşı müasir Azərbaycanla ayrılmaz şəkildə bağlıdır. Mehriban Əliyeva Bakını dünyanın humanist əməkdaşlıq paytaxtlarından birinə çevirməyə nail ola bilibdir" *(www.respublica-news.az).*

Ulu öndərimiz Heydər Əliyevin ideyalarını uğurla həyata keçirməkdə davam edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının **"Azərbaycan dövlətinin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır"** prinsipial sosial siyasətində insan inkişafının təmin edilməsi, neft kapitalının insan kapitalına çevrilməsi artıq günün reallığıdır.

Bütün yuxarıda deyilənlər onu göstərir ki, Ümummilli liderimiz Heydər Əliyevin inkişaf strategiyası onun layiqli davamçısı prezident İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir, dayanıqlı, innovativ və inklüziv yanaşmalara əsaslanan iqtisadi inkişafı ölkə əhalisinin sosial rifahının yüksəlməsini təmin edir və **gələcəkdə Azərbaycanın dünyanın ən inkişaf etmiş ölkələrindən birinə gətirib gətirib çıxaracaqdır. Amin.**



***AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor*** ***Şahbaz Muradov***

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az